15 iyun ~ Milli Qurtuluş Günü

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 24 (1019) 14-20 iyun 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# TANAP TARİXİ LAYİHƏDİR. BU GÜN BİZ XXI ƏSRİN ENERJİ TARİXİNİ BİRLİKDƏ YAZIRIQ




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Türkiyə Respublikasında səfərdə olub.

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində Ukrayna Prezidenti Petro Poroşenko ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olunmuş, nəqliyyat sahəsində əməkdaşlığın yaxşı nəticələr verdiyi bildirilmişdir.

Görüşdə ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 2,5 dəfə, Azərbaycandan Ukraynaya ixracın isə 8 dəfə artdığı bildirilmişdir. Həmçinin, Ukraynadan gələn və Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin 2 dəfə artdığı qeyd edilmişdir.

* * * *

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Görüşdə TANAP layihəsinin açılışının əhəmiyyəti vurğulanmış, BP-SOCAR əməkdaşlığının uğurla həyata keçirildiyi qeyd edilmişdir.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 12-də Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir. Azərbaycan ilə Türkiyənin birgə həyata keçirdiyi mühüm qlobal layihələrin, o cümlədən TANAP layihəsinin əhəmiyyəti vurğulanmışdır. Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * * *

**İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak çıxış etdilər. Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Biz Azərbaycanda Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş uğurlara çox sevinirik. Prezident Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə dünya çapında böyük gücə çevrildi. Türkiyə o ölkədir ki, dünya gündəliyini müəyyən edir. Biz Azərbaycanda buna sevinirik. Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ikinci ölkələr tapmaq çox çətindir. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz üçün, həm xalqlarımız üçün, bölgəmiz üçün, Avrasiya üçün önəmli amildir.

**Bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.**

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır.

Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılmış və bir çox tədbirlər keçirilmişdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmamışdır. Belə olan halda Türkiyə və Azərbaycan qərara gəldilər ki, biz özümüz yeni bir layihəni irəli sürək və bunun adını da biz birlikdə qoyduq – TANAP. TANAP üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi iki həftə bundan öncə - mayın 29-da Bakıda təşkil edilmişdir. Cənub Qaz Dəhlizi dörd böyük layihədən ibarətdir. "Şahdəniz-2" qaz yatağının işlənilməsi, - o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, - Cənubi Qafqaz Kəməri, TANAP və TAP layihəsi. Bu dörd layihənin üçü artıq reallaşıb, başa çatıb. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın iki il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

"Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin önəmi məhz bundadır – enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. "Cənub Qaz Dəhlizi" həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və BP şirkətləri iştirak ediblər, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. Cənub Qaz Dəhlizi Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində - 2000-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, yeddi ölkə bu layihədə iştirak edir. Daha üç ölkə bizim gələcək tərəfdaşlarımız kimi bu layihədə iştirak edəcək. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.




Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olmuşdur. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulubdur, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır.

Bu gözəl hadisə münasibətilə sizi, xalqlarımızı, bizim bütün dostlarımızı ürəkdən təbrik etmək istəyirəm, TANAP-a yaxşı yol arzulayıram.

* * * *

Daha sonra Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic, Ukrayna Prezidenti Petro Poroşenko və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdilər.

Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi oldu.

Xatırladaq ki, uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

PAŞA Bank

Azərbaycan xalqını Milli Qurtuluş günü və Ramazan bayramı münasibətilə təbrik edir!

# Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərim on bir ayın sultanı sayılan mübarək Ramazan ayında nazil olmuşdur. Müsəlmanlar bu ayda Uca Yaradan qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Orucluq mərasimləri hər il cəmiyyətimizdə humanizmin, birlik və bərabərliyin təntənəsinə çevrilir. Bu mübarək ayda xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi naminə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini minnətdarlıqla yad edirəm.

Əlamətdar haldır ki, builki Ramazan günləri müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubiley təntənələri ilə bir vaxta təsadüf edir. Müstəqil dövlətçiliyimizin bərpasından sonra ölkədə mütərəqqi islami dəyərlərin bərqərar edilməsi cəmiyyətimizin mənəvi-əxlaqi yüksəlişinə təkan vermiş, öz milli köklərinə daim sadiq qalan xalqımızın bütövlüyünü, vəhdətini və həmrəyliyini daha da gücləndirmişdir. Bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda Azərbaycanın oğul və qızlarının sarsılmaz mübarizə əzmi və yüksək vətənpərvərliyi tarixi ənənəyə və milli-mənəvi dəyərlərə bağlılığın bariz nümunəsidir.

Əziz bacı və qardaşlarım!

Könül xoşluğu ilə yola saldığımız Ramazan ayı artıq başa çatır. Bu əziz bayram günlərində bir daha etdiyiniz dua və niyyətlərin Ulu Tanrı dərgahında qəbul olunmasını arzu edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət diləyirəm.

**Ramazan bayramınız mübarək olsun!**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri,**
**13 iyun 2018-ci il**

# AZƏRBAYCANDA ƏN MÜASİR HƏRBİ TEXNİKANIN İSTEHSALINA GENİŞ İMKANLAR VAR

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

Müdafiə naziri Zakir Həsənov dövlətimizin başçısına raport vermiş, bildirmişdir ki, hərbi hissənin inşasına 2017-ci ilin mayında başlanılıb. Ümumi ərazisi 36 hektar olan hərbi hissədə qərargah binası, əsgər yeməkxanası və yataqxanası, idman və sıra düzülüş meydançaları, maşınlar üçün qaraj, nəzarət-buraxılış məntəqəsi, nəzarət qülləri quraşdırılıb.

Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə də tanış olmuşdur.

Hərbi hissənin raketlərin yoxlanılması anqarında zəruri avadanlıq quraşdırılıb. Burada raketlər təmir ediləcək və yoxlanılacaq. Burada, həmçinin raket meydançası da yaradılıb. Bu hərbi hissədə belə müasir infrastrukturun yaradılması onun strateji əhəmiyyətini daha da artırır.

Yeni hərbi hissənin ərazisində iriqabaritli hərbi maşınlar üçün saxlanma anqarı, yanacaqdoldurma məntəqəsi, açıq test meydançası yaradılıb. Ümumilikdə, burada görülən işlər ordu quruculuğu sahəsində son illərdə aparılan məqsədyönlü islahatların tərkib hissəsidir.

Dövlətimizin başçısı döyüş texnikası parkında hərbi texnikaya baxmışdır.



Bütün bunlar göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə Ordumuzun müasir silah-sursat, hərbi texnika ilə təminatı məsələsinə xüsusi diqqət və qayğı ilə yanaşılır.

Təsadüfi deyil ki, bu gün Ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Azərbaycan Ordusunun maddi-texniki bazasının yüksək səviyyədə təminatı üçün müasir silah-sursat, hərbi texnika xaricdən alınır. Bununla yanaşı, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi də Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır.

# Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayacaq




"Cənub Qaz Dəhlizi Cənub-Şərqi Avropa və Balkan ölkələrinin, eləcə də bütövlükdə qitənin enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rol oynayacaq".

Bunu Bakıda keçirilən "Cənub Qaz Dəhlizi və Cənub-Şərqi Avropada enerji təhlükəsizliyi" mövzusunda beynəlxalq konfransda Bolqarıstanın Energetika Nazirliyinin nümayəndəsi Rosen Simitchiev deyib.

"Bolqarıstan ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Bu da öklənin təbii qaza olan tələbatının 25-30 faizini təmin edəcək. Cənub Qaz Dəhlizi qitədə mənbələrin və marşrutların şaxələndirilməsinə xidmət edəcək", - deyə o qeyd edib.

Bolqarıstan rəsmisi Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) tikintisinin isə 2021-ci ilin birinci yarısında tamamlanmasının nəzərdə tutulduğunu bildirib.

# Bu il Azərbaycandan 13 ixrac missiyasının təşkili nəzərdə tutulur



İxrac missiyasının maksimum müddəti 4 gündən 6 günədək, iştirakçıların sayı isə 20-dən 30-a qədər artırılıb.

Bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti vəzifəsini icra edən Yusif Abdullayev iyunun 12-də fondun fəaliyyəti, "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində görülən işlər və qarşıda duran vəzifələrə dair keçirilən mətbuat konfransında deyib.

İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, yerli istehsalın stimullaşdırılması, rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalı, ixracatçılara yaradılmış əlverişli şərait, ixracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər barədə məlumat verib.

Yusif Abdullayev qeyd edib ki, Azərbaycanın ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin biznes əlaqələrinin daha da genişləndirilməsi və ölkə iqtisadiyyatına investisiya qoyuluşunun təbliği məqsədilə Azərbaycanda və xaricdə 2018-ci ilin yanvar ayından etibarən 33 tədbir və ikitərəfli görüş təşkil olunub. Bu ilin əvvəlindən 4 ölkənin müxtəlif təşkilatları ilə əməkdaşlığa dair 5 anlaşma memorandumu imzalanıb. 2018-ci ilin əvvəlindən İxracatçılar Klubunun 4 iclası keçirilib, 160-dan çox şirkətə ixrac üzrə fərdi qaydada xidmətlər göstərilib, sahibkarlıq subyektlərinə 1,7 milyon manat məbləğində ixrac təşviqi ödənilib.

Ümumilikdə isə, indiyədək bu istiqamətdə sahibkarlara 5,3 milyon manat ödənilib.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin yanvar-may ayları ərzində "Made in Azerbaijan" brendinin xarici ölkələrdə təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə Rusiyanın Həştərxan vilayətinə ixrac missiyası təşkil olunub. İxrac missiyasında tikinti materialları, tekstil, qənnadı məhsulları, meyvə-tərəvəz, təbii mineral sular və limonadlar, meyvə şirələri və s. sahələr üzrə 30-dan çox yerli şirkətin nümayəndəsi iştirak edib.

Bundan əlavə, ilin əvvəlindən Azərbaycan şirkətlərinin vahid ölkə stendi ilə 4 sərgidə iştirakı təmin olunub. Bu ilin əvvəlindən vahid ölkə stendi mexanizmi çərçivəsində 5,5 milyon manatlıq müqavilə imzalanıb və artıq 4 milyon manata yaxın məhsul ixrac olunub.

Vurğulanıb ki, AZPROMO Azərbaycanın ixrac və investisiya imkanlarının təşviqi, yerli şirkətlərin xarici tərəfdaşları ilə işgüzar əlaqələrinin daha da genişləndirilməsi və ölkəmizin iqtisadiyyatına investisiya qoyuluşu istiqamətində tədbirləri bundan sonra da davam etdirəcək.

# Maliyyə Bazarlarına Nəzarət Palatası Qiymətli Kağızlar Komissiyalarının Beynəlxalq Təşkilatının üzvlüyünə qəbul edilib

Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) Qiymətli Kağızlar Komissiyalarının Beynəlxalq Təşkilatının (IOSCO) üzvlüyünə qəbul edilib.




MBNP-nin mətbuat xidmətindən bildiriblər ki, "Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə kapital bazarlarının inkişaf etdirilməsi, emitent və investorların aktivliyinin artırılması strateji hədəfi istiqamətində həyata keçirilən çoxsaylı tədbirlər nəticəsində Maliyyə Bazarlarına Nəzarət Palatası növbəti uğura imza atıb. Belə ki, bu il aprelin 27-də Qiymətli Kağızlar Komissiyalarının Beynəlxalq Təşkilatının Katibliyinə rəsmi qaydada müraciət etmiş MBNP IOSCO-nun idarə heyətinin qərarına əsasən, cari ilin iyun ayından təşkilatın assosiativ üzvlüyünə qəbul edilib.

IOSCO qiymətli kağızlar bazarına nəzarət üzrə qlobal standartları müəyyən edən, bu istiqamətdə tənzimlənmə və nəzarət, risklərin müəyyənləşdirilməsi və minimallaşdırılması, habelə maliyyə bazarlarına təsir edə bilən digər məsələlər üzrə xüsusi əməkdaşlıq platformasını təmin edən beynəlxalq təşkilatdır.

IOSCO-nun üzvü olaraq, respublikamızı təmsil edən Maliyyə Bazarlarına Nəzarət Palatası qiymətli kağızlar bazarının tənzimlənməsi üzrə standartların hazırlanması, tətbiqi və beynəlxalq səviyyədə harmonizasiyası prosesində iştirak etmək, həmçinin IOSCO-nun təcrübə mübadiləsi, təlim proqramları və biliklərin bölüşdürülməsi platformasından faydalanmaq imkanı əldə edəcək.

Bununla yanaşı, palata IOSCO-nun daxili komitələrində, o cümlədən Prezidentlər komitəsi, Avropa regional komitəsi, inkişaf etməkdə olan bazarlar komitəsində təmsil olunacaq.

IOSCO-ya üzvlük ölkənin qiymətli kağızlar bazarının qabaqcıl meyarlara uyğunluğunun göstəricisi olmasını nəzərə alaraq, Azərbaycana beynəlxalq investorların cəlbini mümkün edəcək.

Bu da, öz növbəsində qiymətli kağızlar bazarının inkişafına töhfə verəcək.

# Beynəlxalq Enerji Agentliyi: 2019-cu ildə neft təklifi və tələbatı artmaqda davam edəcək



Gələn il neft təklifi və tələbatı artmaqda davam edəcək.

Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) neft bazarına dair aylıq hesabatında deyilir. Bildirilir ki, 2019-cu ildə qlobal neft tələbatı güclü olmaqda davam edəcək və ABŞ-ın liderliyi ilə bazarda neft təklifi də artacaq.

IEA-nın hesabatına görə, 2019-cu ildə qlobal neft tələbatı gündəlik 1,4 milyon barrel artacaq. Tələbatdakı artımın əsas hissəsi isə neft-kimya sektorundan qaynaqlanacaq. Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) üzrə istehsal Səudiyyə Ərəbistanı liderliyi ilə may ayında gündəlik 50 min barrelə qədər artımla 31,69 milyon barrelə çatıb. 2019-cu ildə qeyri-OPEC ölkələri üzrə neft təklifindəki artım bu il nəzərdə tutulan gündəlik 2 milyon barreldən 1,7 milyon barrelə düşəcək. Bu il və gələn il neft istehsalındakı artımın 75 faizi ABŞ-da formalaşacaq.

14-20 iyun 2018-ci il

# TANAP Azərbaycanın iştirakı və dəstəyi ilə reallaşdırılan növbəti nəhəng layihədir

"İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasimin keçirilməsi, kəmərin işə salınması böyük tarixi hadisədir. Bunla Azərbaycan daha bir tarixi, iqtisadi, siyasi uğuruna imza atdı, nəinki regionun, bütövlükdə Avropanın və dünyanın enerji təhlükəsizliyinə özünün növbəti töhfəsini vermiş oldu".

Bunu Oxu.Az-a açıqlamasında akademik, Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə deyib.

Akademik qeyd edib ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur.

Onun sözlərinə görə, Cənub Qaz Dəhlizinin (CDQ) əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə qədər uzanır.

Komitə sədri vurğulayıb ki, layihə ilə bağlı Azərbaycanla Türkiyə arasında Anlaşma Memorandumu hələ 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib.

"TANAP layihəsi təbii qazın "Şahdəniz", eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir", - deyən Z.Səmədzadə bununla yanaşı, açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, o cümlədən, Ukrayna dövlət başçısı Petro Poroşenkonun, Şimali Kipr xalqının lideri Mustafa Akıncının, Serbiya Prezidenti Aleksandr Vuçicin, BP şirkətinin baş icraçı direktoru Robert Dadlinin iştirakını yüksək qiymətləndirib:



"Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak çıxış etdilər.

Eyni zamanda, qardaş və dost Türkiyənin Prezideti Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr xalqının lideri Mustafa Akıncı, Serbiya Prezidenti Aleksandr Vuçic və Ukrayna Prezidenti Petro Poroşenko çıxış etdilər.

Hər bir çıxış tarixi, yüksək əhəmiyyət daşıyan, gələcək əlaqələrin möhkəmləndirilməsinə təkan, töhfə verən çıxışlar idi.

Xüsusilə, cənab Ərdoğanın çıxışına toxunaraq qeyd etmək istəyirəm ki, bu çıxış bir daha Türkiyə-Azərbaycan qardaşlığının, dostluğunun, müttəfiqliyinin əyani göstəricisi oldu".

Komitə sədri açıqlamasında Azərbaycan prezidentinin çıxışına xüsusi yer ayırıb:

"Ölkə prezidenti qeyd etdi ki, TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür, TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. Türkiyə ilə Azərbaycanın birlikdə XXI əsrin enerji tarixini birlikdə yazdığını vurğulayan cənab İlham Əliyev onu da bəyan etdi ki, bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir.

Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olub.

Hesab edirəm ki, bu, TANAP-a, eləcə də Türkiyə-Azərbaycan müttəfiqliyinə verilən ən böyük dəyərdir.

Eyni zamanda, qeyd etmək yerinə düşər, elə Azərbaycan prezidentinin də çıxışında vurğulandığı kimi, bu, birgə həyata keçirilən birinci layihə deyil.

Belə ki, bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin birlikdə açılışı həyata keçirilib.

Həmçinin, keçən il birlikdə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı reallaşdırılıb.

Yəni, bunlar onu göstərir ki, Azərbaycanın təşəbbüsü ilə irəli sürülən (Türkiyənin də iştirakı ilə - red.) istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və qardaşlıq dayanır.

Yəni, bunların mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində oldu. Əgər Türkiyə-Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Amma çox sevindirici və əlamətdar haldır ki, bu birlik sayəsində XXI əsrin müqaviləsi kimi xarakterizə olan TANAP-ın açılışına da nail olundu.

Bundan təkcə Azərbaycanla Türkiyə deyil, bütövlükdə Avropa və dünya yaralanacaq, öz enerji təminatlarını, enerji təhlükəsizliklərini təmin edəcəklər".

**Kamil HƏMZƏOĞLU**

# TANAP Balkan ölkələrinin və Avropanın enerji təhlükəsizliyini təmin edəcək



"Trans-Anadolu təbii qaz boru kəmərinin (TANAP) Bolqarıstan üzərindən Avropanın digər ölkələrinə davam etməsi prinsipial olaraq qəbul etdiyimiz qərarın nəticəsidir".

Bu sözləri Türkiyənin Baş naziri Binəli Yıldırım deyib. Baş nazir bildirib ki, bu kəmər vasitəsilə illik 10 milyard kubmetr Azərbaycan qazı Avropa bazarına nəql olunacaq. TANAP böyük bir coğrafiyada sosial rifahı artıracaq, Balkan ölkələrinin və Avropanın enerji təhlükəsizliyini təmin edəcək.

Qeyd edək ki, TANAP Türkiyənin 20 vilayət, 67 rayon və 600 kəndindən keçməklə TAP boru kəmərinə birləşəcək.

# "Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsini dəyişir"



Bu fikirləri Bakıda keçirilən "Cənub Qaz Dəhlizi və Cənub-Şərqi Avropada enerji təhlükəsizliyi" mövzusunda beynəlxalq konfransda Azərbaycanın energetika nazirinin müavini Samir Vəliyev səsləndirib. "Cənub Qaz Dəhlizi artıq reallaşır.

Mayın 29-da Səngəçalda Cənub Qaz Dəhlizinin açılışının keçirilməsi, dünən isə Əskişəhərdə TANAP boru kəmərinin istismara verilməsi bunun bariz nümunəsidir.

Azərbaycanın liderliyi ilə reallaşan Cənub Qaz Dəhlizi Avropaya alternativ və yeni mənbədən təbii qazı təmin edəcək", - deyə nazir müavini bildirib.

# «TANAP Azərbaycan qazını alacaq ölkələr üçün müxtəliflik mənasını verir»

Bu sözləri Ankarada ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavini xanım Sandra Oudkirk deyib.

TANAP layihəsinin Cənub Qaz Dəhlizinin böyük bir hissəsi olduğunu qeyd edən S.Oudkirk boru kəmərinin bölgənin enerji bazarındakı rolunun əhəmiyyətli olduğunu vurğulayıb: "Azərbaycan təbii qazını daşıyacaq boru kəməri mənbələrin şaxələndirilməsini təmin edəcək. Bu layihə Azərbaycan qazını alacaq ölkələr üçün müxtəliflik mənasını verir. Digər tərəfdən də qazı tədarük edən ölkənin enerji təhlükəsizliyinə mühüm töhfədir. Birbaşa yatırımı və kommersiya maraqlarının olmamasına baxmayaraq, ABŞ mənbələrin müxtəlifliyi və enerji təhlükəsizliyinə töhfə verdiyi üçün bu layihəni dəstəkləyir".

Digər enerji layihələrinin TANAP-a birləşməsini də qiymətləndirən S.Oudkirk bildirib ki, bu layihənin infrastrukturu inkişaf etdirilə və genişləndirilə bilər. Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetrdir və bunu iki dəfəyədək artırmaq mümkündür.



Enerji mənbələrinin kommersiya üstünlüyünü təmin etmək baxımından yeni əməkdaşlıqlar yarada biləcəyini qeyd edən ABŞ rəsmisi deyib: "TANAP-ın istifadəyə verilməsi çox gözəl hadisədir. Dünyada çətinliklər yaşanarkən TANAP qlobal olaraq yaxşı bir inkişafdadır. Azərbaycan təbii qazını bazara çatdırması üçün də yaxşıdır. Müttəfiq və ortaqlarımızın enerji təhlükəsizliyi bizim üçün vacibdir".






# Müdrikliyin zirvəsində



***İqtisad elmləri doktoru, professor Afət Tərlan oğlu Əhmədovun 80 yaşı tamam olur. Böyük rəqəmdir. Elə Afət müəllimə olan hörmət də, sevgi də böyükdür. 80 yaş müdrikliyin zirvəsidir. Bu zirvədən keçmişi görmək, ötən illəri bir-bir xatırlamaq da olur. Bu zirvədən keçmiş illəri seyr edən Afət müəllim, yəqin ki, şərəfli ömür sürdüyünə görə bu gün qürur duyur.***

A.T.Əhmədov 1938-ci il iyunun 15-də Biləsuvar rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1958-ci ildə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Kənd təsərrüfatının iqtisadiyyatı" fakültəsinə daxil olmuşdur. Həmin ildə institutun fəaliyyəti dayandırıldığına görə "Kənd təsərrüfatının iqtisadiyyatı" fakültəsi Gəncə şəhərindəki AzKTİ-yə verilmişdir. A.Əhmədov 1962-ci ildə S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Kənd təsərrüfatının iqtisadiyyatı" fakültəsini bitirdikdən sonra Bakı şəhərində yerləşən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutuna təyinatla işə göndərilmişdir. O, burada kiçik elmi işçi vəzifəsində fəaliyyətə başlamışdır. 1965-1968-ci illərdə institutun əyani aspirantı olmuş və 1969-cu ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır.1971-ci ildə baş elmi işçi, 1973-cü ildə institutun elmi katibi, 1975-ci ildə şöbə müdiri vəzifələrində çalışmışdır. 1980-ci ildə köçürmə yolu ilə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində "Kənd təsərrüfatı elm və təbliğatı baş idarəsinin" rəis müavini vəzifəsinə irəli çəkilmişdir. 1982-ci ildə doktorluq dissertasiya işi ilə əlaqədar olaraq müsabiqə yolu ilə yenidən AzETKTİ və Tİ-yə qayıdaraq şöbə müdiri vəzifəsində çalışmışdır.

A.Əhmədov 1996-cı ildə iqtisad elmləri doktoru, 2000-ci ildə isə professor adına layiqgörülmüşdür. 1997-2004-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Ekspert Şurasının üzvü və elmi katibi olmuşdur.

Kənd təsərrüfatında əmək ehtiyatlarından istifadə; əməkqabiliyyətli əhalinin məşğulluq problemi; əməyin elmi təşkili; əməyin stimullaşdırılmasının mütərəqqi formalarının sınaqdan keçirilməsi, mütəxəssis və fəhlə kadrların hazırlanması; aşağı, orta və yüksək səviyyələr üçün rəhbər işçilərin hazırlanması; elmi-texniki tərəqqinin inkişafı şəraitində mütəxəssislərdən istifadə; kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsi; əmək məhsuldarlığının artım sürəti ilə əməkhaqqının artım sürəti arasında nisbətin optimallaşdırılması; kənd təsərrüfatında podrat üsulunun tətbiqi; kənd təsərrüfatında icarə podratının sınaqdan keçirilməsi; intensiv texnologiyaların tətbiqi yolu ilə məhsul vahidinə əmək sərfinin azadılması və s. problemlər Afət müəllimin elmi yaradıcılığının başlıca istiqamətləri olmuşdur. O, 1997-2006-cı illərdə ADİU-da əməyin iqtisadiyyatına dair mühazirələr oxumuşdur.

1970-ci ildə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyası A.Əhmədova "Kommunizm əməyi zərbəçisi" adı vermişdir. O, 1971-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Şəhadətnaməsini almışdır.

A.Əhmədov özünün elmi yaradıcılığı dövründə bir sıra dövlət əhəmiyyətli proqramların hazırlanmasında iştirak edib. Kənd təsərrüfatında əməyin elmi təşkilinə aid təkliflər hazırlayıb, istehsalata tətbiq etdiyinə görə A.Əhmədov 1972-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Diplomu və bürünc medalı ilə təltif edilmişdir. 1974-cü ildə Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyası A.Əhmədovu "Sosializm yarışı qalibi", 1979-cu ildə "Onuncu beşilliyin zərbəçisi" döş nişanı ilə təltif etmişdir.

1984-cü ildə şəxsi yaradıcılıq və öhdəçilik planlarının yüksək nəticələrinə görə o, SSRİ Kənd Təsərrüfatı Elm-Texniki Cəmiyyətinin Mərkəzi Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir. Afət müəllim öz əsərləri və elmi məqalələri ilə aqrar iqtisad elmini dolğunlaşdırmış, yeniləşdirmiş, 200-ə qədər monoqrafiya, kitab və elmi məqalələr dərc etdirmişdir.

Onun rəhbərliyi ilə 15 nəfər elmlər namizədi və bir nəfər iqtisad elmləri doktoru alimlik dərəcəsi adını almışdır. O, 5 nəfər magistr hazırlamışdır.

1985-ci ildə A.Əhmədov "On birinci beşilliyin zərbəçisi" döş nişanı ilə təltif olunmuşdur.

A.Əhmədov 2011-ci ildən Bakı Biznes Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının müdiri vəzifəsində çalışmışdır. O, dünya iqtisadiyyatı, beynəlxalq iqtisadi münasibətlər, dünya iqtisadiyyatının tarixi və s. fənlərdən mühazirə oxuyur.

Yüksək pedaqoji fəaliyyətinə görə A.Əhmədov 2013-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuşdur, 1995-ci ildən Azərbaycan İqtisadçılar İttifaqının üzvüdür.

A.Əhmədov əmək veteranıdır. 2015-ci ildə Azərbaycan bayrağı fəxri diplomu və həmin ildə "İlin alimi" fəxri adı, diplom və medalla təltif edilmişdir.

Afət müəllim, sizi doğum gününüz münasibətilə təbrik edir, uzun ömür, can sağlığı və gələcək elmi yaradıcılığınızda müvəffəqiyyətlər arzulayırıq.

**Azərbaycan İqtisadçılar İttifaqı, "İqtisadiyyat" qəzeti**




## Mərkəzi Bankda müəllimlər üçün təlim keçirilmişdir



Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə prioritet istiqamət kimi müəyyənləşdirilmiş "Maliyyə bazarı iştirakçılarının bilik və bacarıqlarının artırılması" hədəfinin icrası ilə bağlı tədbirlər Mərkəzi Bankda davam etdirilir. Bu tədbirlər çərçivəsində Mərkəzi Bankda ölkənin ümumtəhsil məktəblərinin müəllimlərinə maliyyə savadlılığının kurikuluma inteqrasiya edilmiş elementlərinə dair peşəkar təlimlər keçirilmişdir.

2017/2018-ci tədris ilinin ikinci yarısında Bakı şəhəri üzrə Təhsil İdarəsi ilə birlikdə "Həyat Bilgisi" fənnini tədris edən 110 nəfər müəllimə təlimlər keçirilmişdir. Təlimlər zamanı müəllimlərin iqtisadi savadlılığının artırılması və tədris prosesində bu biliklərdən effektiv istifadəsi məqsədilə müxtəlif mövzular tədris olunmuşdur. Sözügedən təlimlərə maraq göstərmiş müəllimlərin iqtisadi mövzulara aid sualları mütəxəssislər tərəfindən cavablandırılmışdır.

Təlimlərin yekununda tərəfdaş qurumların iştirakı ilə müəllimlərə sertifikatlar təqdim edilmiş və iştirakçıların təlim haqqındakı rəyləri öyrənilmişdir.

Ümumtəhsil məktəblərinin müəllim və şagird heyətinin iqtisadi maarifləndirilməsi üçün Mərkəzi Bank gələcəkdə də müxtəlif tədbirlər keçirməyi nəzərdə tutur.

## "Təhsil müəssisələrində Dayanaqlı İnkişaf Məqsədlərinin təbliği istiqamətində tədbirlərin təşkili" adlı layihə icra olunur

Artıq bir aydan çoxdur ki, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ilin 1-ci qrant müsabiqəsinin qalibi olmuş "Təhsil müəssisələrində dayanaqlı inkişaf məqsədlərinin təbliği istiqamətində tədbirlərin təşkili" adlı layihə "Azərbaycan İqtisadçılar İttifaqı" İctimai Birliyi tərəfindən icra edilməyə başlanılmışdır. Layihənin məqsədi dayanıqlı inkişaf ideyalarını təhsil müəssisələrində təşviq etmək, ölkəmizdə bu sahədə aparılan işlər barədə müəllim və tələbələri məlumatlandırmaqdır.

Məlum olduğu kimi, dayanıqlı inkişaf mövcud resursların bugünkü nəsillər tərəfindən məqsədyönlü şəkildə istifadə edilərək gələcək nəsillərə ötürülməsidir.

Azərbaycan BMT üzvü olan dövlətlərin 17 dayanıqlı inkişaf məqsədini və 169 hədəfi özündə birləşdirən yeni, qlobal dayanıqlı inkişaf məqsədlərinə (DİM) qoşulub. Bu sahədə işlərin əlaqələndirilməsi üçün ölkə Prezidenti cənab İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb, şuranın funksiyalarının reallaşdırılması İqtisadiyyat Nazirliyinə həvalə edilib.

Lakin dövlətin bu sahədə siyasətinin səmərəli olması üçün əhalinin geniş təbəqələrinin, xüsusən də gənclərin və müəllimlərin bu sahədə maariflənməsinə ehtiyac var. Layihənin ilkin mərhələsində məqsəd dayanıqlı inkişaf məqsədləri və hədəflərini özündə birləşdirən yeni qlobal dayanıqlı inkişaf məqsədlərini təhlil etmək, onları sistemləşdirməkdən ibarətdir.

## "AtaBank" ASC Ramazan bayramında müştərilərə xidmət göstərəcək

"AtaBank" ASC Ramazan Bayramı münasibətilə bütün xalqımızı təbrik edir və bayram günlərində iş rejimi ilə bağlı məlumatı diqqətinizə çatdırır.




Bankın aşağıdakı filialları 16 və 18 iyun tarixlərində fəaliyyət göstərəcək:

- 16, 18 iyun - Bakı filialı - Bakı şəh., Neftçilər pr. 67; 09:00 – 18:00-dək (fasiləsiz)
- 16, 18 iyun - Sahil şöbəsi - Bakı şəh., Puşkin küç. 9, qapı 1 və 2; 09:00 – 18:00-dək (fasiləsiz)

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# "PAŞA SIĞORTA"DAN BÜTÜN DÜNYANI ƏHATƏ EDƏCƏK YENİ MƏHSUL

"PAŞA Sığorta" Azərbaycan sığorta bazarı üçün yenilik olan və maksimum dərəcədə geniş sığorta təminatı verən beynəlxalq tibbi sığorta məhsulunu təqdim edib. Şirkət bununla əlaqədar olaraq iyunun 8-də təqdimat mərasimi keçirib.



Tədbirdə "PAŞA Sığorta" şirkətinin İdarə Heyətinin Sədri Ülviyyə Cabbarova, Marketinq və İctimaiyyətlə Əlaqələr departamentinin rəhbəri Nuranə Teymurova, şirkətin bu məhsul üzrə əməkdaşlıq etdiyi xarici tərəfdaşları "Cross-border Health Partners" və "Global Benefits Group" şirkətlərinin nümayəndələri, "Acıbadem" xəstəxanalar şəbəkəsinin ümumi cərrahiyə üzrə dosenti doç. dr. Tamer Karşıdağ və həkim-psixiatr Həlimə Qəmərlinskaya çıxış etmişdir.

Daim müştəri istəklərini fəaliyyətinin əsas meyarı tutan "PAŞA Sığorta" xarici ölkələrin xəstəxanalarında keçərli beynəlxalq tibbi sığorta məhsulunu 2 növdə təklif edir – "Sərhədsiz Səhhət" və "Tibbi Sığorta: Acıbadem". Bu məhsulların bazara təqdim olunma ideyası da məhz müştərilərdən daxil olan çoxsaylı sorğulara əsasən yaranmışdır. Hər bir sığorta məhsulu iki paketdən ibarətdir. "Sərhədsiz Səhhət" paketləri bütün dünya üzrə ərazilərə bölünür.

"Sərhədsiz Səhhət" - dünyanın dörd bir yanında keçərli beynəlxalq tibbi sığorta məhsuludur və hər bir ərazi bölgüsü daxilində "Advantage" və "Advantage Plus" tibbi sığorta paketlərini seçmək imkanı verir: 1-ci ərazi - bütün dünya; 2-ci ərazi - Şimali Amerika istisna olmaqla bütün dünya; 3-cü ərazi Şimali Amerika, Çin, Böyük Britaniya, Honq Konq, Sinqapur və İsveçrə istisna olmaqla bütün dünya; 4-cü ərazi - Şimali Amerika, Çin, Böyük Britaniya, Honq Konq. Sinqapur, İsveçrə, Avstraliya, Braziliya, Çili, Meksika, və Tayland istisna olmaqla bütün dünya.

"Tibbi Sığorta: Acıbadem" tibbi sığorta məhsulu 2 paketdən ibarətdir.

"Crystal" və "Diamond". "Crystal" tibbi sığorta paketi maksimum 80 000 ABŞ dolları, "Diamond" tibbi sığorta paketi isə maksimum 500 000 ABŞ dolları sığorta təminatına malikdir.

Qeyd olunan məhsulların təminatına xarici xəstəxanalarda check-up müayinə, hamiləlik, xroniki və onkoloji xəstəliklər kimi mühüm xidmətlər daxildir.

Tədbirdə çıxış edən "PAŞA Sığorta" şirkətinin İdarə Heyətinin sədri Ülviyyə Cabbarova bildirib: "Azərbaycanın ən böyük sığorta şirkəti olaraq biz hər zaman müştərilərimizə yalnız ən yaxşı həlləri təqdim edirik. Məhz buna görə biz beynəlxalq sağlamlıq sığortası üzrə böyük təcrübəyə malik olan "Cross Border Health Partners" və "Global Benefits Group"u partnyor şirkətlər kimi seçmişik. Biz çox şadıq ki, öz müştərilərimizə təkcə Azərbaycanda yox, həmçinin bütün dünyada yüksək səviyyəli tibbi sığorta üzrə xidmət təklif edə bilirik"

Qeyd edək ki, sığorta paketlərinin qiymətləri müraciət edən şəxsin yaşına, sağlamlıq tarixçəsinə görə dəyişir. Həmçinin, fərdi, qrup, korporativ şəkildə müraciət edərək bu məhsulları xüsusi şərtlərlə əldə edə bilərsiniz.

"PAŞA Sığorta" şirkəti 2006-cı ildən fəaliyyət göstərir. "PAŞA Holding" qrupunun üzvü olan "PAŞA Sığorta" 300 000-ə yaxın korporativ və fərdi müştərisinə 36 növ könüllü və icbari sığorta üzrə xidmət göstərir. Şirkət kapitalının, sığorta yığımlarının, sığorta ödənişlərinin həcmi və digər göstəriciləri ilə sığorta bazarının lider və ən böyük sığorta şirkətlərindəndir.

# Gömrük fəaliyyətinin qiymətləndirilməsi üçün jurnalistlərdən ibarət xüsusi qrup yaradıla bilər

Bu barədə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev "Azərbaycan gömrüyü: bu gün və sabahın çağırışları" mövzusunda jurnalistlər üçün keçirilən seminarda deyib.



O bildirib ki, hər il gömrük sərhəd-keçid məntəqəsində 5 milyon 400 min insana xidmət göstərilir. Gömrük işi maraqlı və ölkə üçün əhəmiyyətli sahə olmaqla yanaşı, həm də çətin və böyük məsuliyyət tələb edən bir sahədir. Gömrük fəaliyyətinin qiymətləndirilməsi üçün gömrük sahəsində ixtisaslaşan jurnalistlərdən ibarət xüsusi bir qrupun yaradılması məqsədəuyğun olar. Bu jurnalistlər yalnız bizim dəvətimizlə yox, öz istəkləri ilə də gömrük fəaliyyətini izləyə, hətta bir gömrükçü kimi günün müəyyən bir qismini çalışaraq bu peşəyə daha yaxşı bələd ola bilər.

Həmçinin, S.Mehdiyev qeyd edib ki, jurnalistlərə gömrük qanunvericiliyinin dərindən öyrənilməsi üçün 20-30 günlük kurslar təşkil edilə bilər.

# Yaxın günlərdə Kiyevdə Azərbaycan Ticarət Evinin açılış mərasimi olacaq

Yaxın günlərdə İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycan Ticarət Evi açılacaq. Bu barədə Azərbaycanın Ukraynadakı səfirliyindən məlumat verilib.

Məlumata görə, Azərbaycan Ticarət Evinin açılışında iştirak etmək üçün Azərbaycandan rəsmi şəxslər və iş adamlarından ibarət nümayəndə həyəti gedəcək.

Açılış mərasimində Azərbaycanın şərab və digər məhsulları təqdim ediləcək.

Azərbaycan Ticarət Evinin açılış mərasimi zamanı, həmçinin Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu və "Ukrayna Şərab İnstitutu" Elmi Mərkəzi arasında elmi və texniki əməkdaşlıq haqqında müqavilə imzalanacaq. Qeyd edək ki, artıq Azərbaycanın Belarusda Ticarət Evi fəaliyyət göstərir və indiyədək bu ticarət evi vasitəsilə ölkəmizdən Belarusa 110 tondan artıq meyvə-tərəvəz məhsulları, zeytun yağı, nar şirəsi, şərab və çay ixrac edilib.

Hazırda Azərbaycanın BƏƏ, Çin və Rusiyada Ticarət evlərinin açılması imkanları araşdırılır.






# İqtisad Elminin tədqiqi və tədrisinə həsr edilən ömürlər:

***İyunun 1-də UNEC-də iqtisad elmləri doktoru, professor Məmmədhəsən Meybullayevin 70 illik yubileyinə həsr olunan anım tədbiri keçirilib.***
***Tədbirdə UNEC-in professor-müəllim heyəti ilə yanaşı, tanınmış akademiklər, alimin yaxınları və ailə üzvləri iştirak edib.***

***Hər bir xalq özünün elmi potensialı ilə fəxr edə bilər. İqtisadiyyat elmi sahəsində də potensialımız güclüdür. Alimlərimizin yaradıcılığını xarakterizə edən faktlarla tanışlıq bunu sübut edir. Oxucuya təqdim edilən "İqtisadi tərəqqiyə həsr edilən ömürlər" kitabında iqtisadçı alimlərimizin elmi-pedaqoji fəaliyyətinin cəmiyyətimiz üçün dəyərli olması konkret faktlarla işıqlandırılır. Bu isə hər bir tədqiqatçı, onun vətəni, ailəsi, övladları üçün çox vacibdir. Mən həyatdan köçmüş iqtisadçı alimlərimizin xatirəsini bir daha əziz tutur, bu gün elm, təhsil ocaqlarında, iqtisadi həyatın bir çox sahələrində çalışan iqtisadçı alimlərimizə, həmkarlarıma möhkəm cansağlığı, Azərbaycanın çiçəklənməsi naminə uğurlar arzulayıram.***

*Akademik Ziyad Səmədzadə,*
*"İqtisadi tərəqqiyə həsr edilən ömürlər" kitabından*

**Rektor, professor Ədalət Muradov:** Hörmətli həmkarlar, qonaqlar və Məmmədhəsən müəllimin doğmaları. Mən, ilk növbədə hamınızı salamlayır, xoş gəlmisiniz deyirəm.
Universitetin simasını formalaşdıran orada çalışan müəllimlərdir. Universitetimizin mənfi imicdən uzaqlaşdırılması və müsbət imicinin formalaşmasında birbaşa xidməti olan ziyalılarımızdan biri də Məmmədhəsən müəllim olmuşdur. O, bütöv iqtisadçılar nəslinin formalaşdırılmasını təmin edən müəllimlərimizdən idi. **Məmmədhəsən müəllim İslam iqtisadiyyatı sahəsində ölkəmizdə aparılan tədqiqatların önündə duran alim, bir ziyalı nümunəsidir. Onunla ünsiyyətdə olan hər bir şəxs özündə yüngüllük tapardı.** Məmmədhəsən müəllim öz bildiklərini dostları, yoldaşları, tələbələri ilə bölüşməyi sevən insan idi. Mən düşünürəm ki, Məmmədhəsən müəllimin bu gün ruhu şaddır. Onun ruhu bu gün burdadır, bizlərlədir. O, cismən bu dünyadan köçsə də, bizim hər birimizin qəlbimizdə yaşayır, var və həmişə də yaşayacaqdır. Mən Məmmədhəsən müəllimə Allahdan rəhmət diləyirəm, yeri behişt olsun, qəbri nurla dolsun. **Biz də İqtisad Universitetində çalışdığımız müddətdə Məmmədhəsən müəllim və digər ziyalılarımızın xatirəsinin əbədiləşdirilməsi üçün əlimizdən gələni edəcəyik.** Düşünürəm ki, tanınmış ziyalılarımızın xatirəsini yad edərkən onların şərəfinə elmi konfranslar, zəngin irslərinin tədqiq olunması üçün dəyirmi masalar təşkil etməliyik.

**Akademik Ziyad Səmədzadə:**



Hörmətli Ədalət müəllim, sizə, eyni zamanda, Azərbaycan Dövlət İqtisad Universitetinin professor və müəllim heyətinə, burada əyləşən insanlara təşəkkürümü bildirirəm ki, bu görkəmli alimin, ziyalının məclisinə gəlmisiniz. Mən bu tədbirin keçiriləcəyini eşidəndə həddindən artıq sevindim. Hər bir elmin illər boyu, əsrlər boyu formalaşan müəyyən xiridarları, ustadları olub. İqtisad elmi başıbəlalı elm olub, müxtəlif dövrlərdə təzyiqlərə məruz qalıb, ancaq inkişaf edib və bu gün bəşəri iqtisad elmi məhfumu var. Bəşəri iqtisad elminin görkəmli nümayəndələri barədə isə biz həmişə danışırıq və onları yad edirik. XX əsrdə Azərbaycan iqtisad elminin formalaşmasında çox dəyərli alimlər iştirak edib və onların çoxu məhz bu universitetdə çalışıb, fəaliyyət göstəriblər. Onların hər birini xatırlayanda böyük qürur hissi keçirirsən. Biz "Böyük İqtisadi Ensiklopediya"da (Məmmədhəsən müəllim redaksiya heyətinin üzvü, baş redaktorun müavini idi) onlar barədə zəruri məlumatları verdik və buna görə də sevinirik.
Məlum səbəblərə görə uzun illər Sovet dövründə "İqtisadi nəzəriyyə" elmi ilə məşğul olan alimlərin çoxu baş verən iqtisadi proseslərə obyektiv münasibətini açıq-aşkar ifadə etməkdən məhrum idi. Lakin onlar imkan daxilində öz iqtisadi inkişaf barədə müstəqil baxışlarını gənc nəslə, bizlərə çatdırmağa böyük səy göstərirdilər. Məmmədhəsən müəllimlə tanışlığımız 1970-ci illərin əvvəllərinə təsadüf edir. Həmin il SSRİ Dövlət Elm və Texnika Komitəsi İqtisadiyyat İnstitutunda, bizim təklifə əsasən, bir şöbə yaradılmasına icazə verdi və o şöbə də "Xalq təsərrüfatının inkişafı və proporsiyaları" adlanırdı. Həmin şöbəyə isə Moskvada vaxtilə Stalin ilə diskussiya aparmış görkəmli alim A.İ.Notkin rəhbərlik edirdi.
SSRİ kimi nəhəng dövlətin xalq





təsərrüfatının inkişaf sürəti və proporsiyalarını öyrənməsi çox ciddi iş idi və böyük məsuliyyət tələb edirdi. Cəmi bir-iki respublikada belə şöbə yaradılmışdı. Bu bizə nə verdi? Bu bizə Azərbaycan iqtisadiyyatının ilk dəfə sistemli təhlilini aparmağa imkan yaratdı.
Onu da deyim ki, ötən əsrin 50-ci illərinin sonlarından yeni yaradılmış şöbədə biz milli gəliri öyrənməyə başladıq. Azərbaycanda milli gəlirlərin öyrənilməsi hüquqları yox dərəcəsində, statistika isə qapalı idi. Müttəfiq respublikalarda bu problemin qoyulmasının özü belə çox riskli idi. Statistika olmadığından heç kim bilmirdi ki, Azərbaycanda real gəlirlər nə qədərdir, milli gəlirlər necə hesablanır? Amma buna baxmayaraq, Məmmədhəsən ilk dəfə olaraq əmək məhsuldarlığı və real gəlir problemini araşdırdı və bu işin öhdəsindən uğurla gəldi. Mən o vaxtlar onun elmi rəhbəri idim. Onun Sankt-Peterburqda doktorluq dissertasiyasının elmi konsultantı SSRİ-nin ən nəhəng iqtisadçılarından biri olan Dobrının olub. Məmmədhəsən müəllim "Xalis məhsul dinamik inkişafın göstəricisi kimi" mürəkkəb mövzunun öhdəsindən gəlib, bu cür çətin mövzunu işləmək hər adama nəsib olmur. Ümumiyyətlə, SSRİ-nin başqa ölkələrə nisbətən geridə qalmasının əsas səbəblərindən biri ondan ibarət idi ki, makro problemlər dərindən təhlil edilmirdi. 70-ci illərə qədər respublikalarda çox lokal və məhdud mövzularda dissertasiyaları işləməyə icazə verirdilər. Müttəfiq respublikalarda qlobal düşünməyə imkan verən mövzuların araşdırılması məhdud idi. Məhz Məmmədhəsən müəllimin mövzusu bu gün də aktualdır. Ümumiyyətlə, bu gün biz qlobal təfəkkürün məhsulu olan mövzulara baxmalıyıq. Hər bir sahənin bu və digər iqtisadi məsələsi tədqiqat predmeti ola bilər, amma müstəqillik şəraitində fəaliyyət göstərən respublikanın qlobal problemlərinin iqtisadi nəzəri əsaslarını bizim alimlərimiz daha ətraflı tədqiq etməlidirlər. Məmmədhəsən müəllim xalis məhsulun bölünməsini, zəruri və izafi məhsulu araşdırmışdır, zəruri və izafi məhsulun konkret daşıyıcıları, konkret parametrlər nədən ibarətdir sualına cavab axtarmışdır. Məmmədhəsən müəllim bu problemləri araşdırdı və Azərbaycanın maraqlarının qorunması baxımından doktorluq dissertasiyasında çoxlu təkliflər verdi. M.Qorbaçov hesab edirdi ki, yeni İttifaq müqaviləsinin əsas prinsiplərindən biri "güclü mərkəz, sonra güclü respublika" olmalıdır. Amma Məmmədhəsən müəllim Qorbaçov hökuməti dövründə belə öz dissertasiyasında "güclü region, güclü respublika, sonra güclü İttifaq" təklifini irəli sürmüşdü. Bu fikri söyləmək üçün böyük cəsarət lazım idi. Bu o deməkdir ki, necə ola bilər ki, mən çox istehsal, amma az istehlak edirəm? Milli gəlir bölüşdürülür, mərkəzə gedir, nəticədə zəif regionlar əsasında güclü ittifaq yaradılır. Məmmədhəsən müəllim cəsarətli iqtisadçı, gözəl tətqiqatçı idi. Çox məqsədəuyğun işlər görürdü. Bu gün Azərbaycan iqtisad elminin problemləri çoxdur. Bəzən o qədər sadə sahəvi problemlərlə məşğul oluruq ki, artıq qlobal düşünməyə vaxtımız olmur. Amma qloballaşma şəraitində müstəqil respublikaların maraqlarının qorunması üçün qlobal təfəkkür lazımdır, milli maraqların müdafiəsi gərəkdir. Biz iqtisadi nəzəriyyənin əsaslarını yeni iqtisadi şəraitə uyğun olaraq araşdırmalıyıq.
Məmmədhəsən müəllimin Azərbaycan elmi tarixində ən böyük xidmətlərindən biri də onun "İslam iqtisadiyyatı" kitabıdır. Mən həmin kitaba ön söz və rəy yazmışam. O dövrdə bu problemi qabartmaq asan məsələ deyildi. İslam iqtisadiyyatını öyrənmək üçün zəngin mənbələrə söykənən böyük şərqşünaslıq elmini dərindən bilmək lazımdır. Bu gün artıq Avropa ölkələri İslam iqtisadiyyatını araşdırır, İslam bankçılığını öyrənir və tədqiq edir. Biz bu məsələdə də hələ çox geridəyik.
**Məmmədhəsən müəllim çox saf əqidəli insan idi. Məndən soruşanda ki, ürəyinizi açdığınız insanlardan 2-3 nəfərin adını sayın, mən onların arasında hər zaman Məmmədhəsən müəllimin də adını qeyd edirdim.**
Məmmədhəsən müəllimin "İqtisadi nəzəriyyə", «Mikroiqtisadiyyata giriş», "Makroiqtisadiyyata giriş» və digər kitabları kifayət qədər sanballı əsərlərdir. Biz iqtisadçılarımızı qorumalıyıq. 2002-ci ildə "İqtisadi tərəqqiyə həsr edilən ömürlər" kitabını hazırlayanda biz çox əziyyət çəkdik. Bəzi alimlərimiz haqqında sanballı, adi məlumatları tapa bilmədik. Hər alimin cəmiyyətə göstərdiyi xidmətə önəm verməliyik və bunun üçün iqtisadçılarımızı qorumalıyıq. Mən Ədalət müəllimin fikri ilə çox razıyam ki, bu cür alimlərin fəaliyyətini qiymətləndirməliyik. Bizim bu doğma universitetdə iqtisadi nəzəriyyəçilərin, o cümlədən Azərbaycan iqtisadiyyatının problemlərinin həlli ilə məşğul olan iqtisadçılarımızın qlobal düşüncəyə ehtiyacı var. Müstəqil dövlətin gələcəyi necə olacaq? Bu gün Azərbaycan iqtisadiyyatını təhlil edərkən proqnozlaşdırılması çox çətin olan yüzlərlə xarici amilin ona təsir etdiyini görürük. Buna görə də nəzəri və metodoloji baxışlara fikir vermək lazımdır. Bu məsələlər Məmmədhəsən müəllimin doktorluq dissertasiyasında və digər çıxışlarında öz əksini tapmışdır.
Mən ulu Tanrıdan Məmmədhəsən müəllimə rəhmət diləyirəm. Övladları xoşbəxt adamlardır ki, ataları onlar üçün öz yaratdığı elmi sərvəti qoyub getmişdir, Məmmədhəsən müəllimin tərbiyəsi, ağlı və zəkası ilə tərbiyə olunan övladları onun yaratdığı əsərlərdir. Allah Məmmədhəsən müəllimə rəhmət eləsin. Ruhu şad olsun.
Mən Ədalət müəllimə bu gözəl təşəbbüs üçün öz təşəkkürümü bildirirəm.

**Akademik Vasim Məmmədəliyev:** İqtisadçı ilə iqtisadi dildə danışmaq lazımdır, bu da mənim üçün çətindir. Mən bu universiteti və buradakı insanları sevirəm, çünki mən özüm də bu binada oxumuşam. O vaxtlar Şərqşünaslıq fakültəsi bu binada yerləşirdi. Mənim şəxsən yaxın dostum, görkəmli alim, elminə və şəxsiyyətinə böyük hörmət bəslədiyim Məmmədhəsən müəllimin 70 illik yubileyidir. Heç ağlıma gəlməzdi ki, Məmmədhəsən müəllim 70 yaşına çatıb. Çünki o qədər işləyən adam idi ki, onu heç görməyə də vaxt olmurdu, onun dəqiqəsi qənimət idi. Mən Ədalət müəllimə çox təşəkkür edirəm ki, görkəmli alimimizin yubileyini keçirir və onun xatirəsi əziz tutulur. Mən islam haqqında yazılan kitablardan məlumatlı idim, zəkat, xüms, fitrə və s. Bunlar hamısı Qurani-Kərimdən irəli gəlir. Amma Məmmədhəsən müəllim "İslam iqtisadiyyatı" kitabını mənə bağışlayanda mən yeni bir aləm kəşf etdim. Belə bir iqtisadiyyat var? Bunların hamısı Qurani-Kərimdə var. Bilməyənə qəribə gəlir. Amma həyat göstərir ki, hər bir Quran kəlamının arxasında böyük bir həqiqət vardır.



Mən Ziyad müəllim və Məmmədhəsən müəllimlə çox məclislərdə bir yerdə olmuşam, əsasən Abşeron məclislərində. Məmmədhəsən müəllim ilə birlikdə məclisə daxil olanda, camaat ona hörmət əlaməti olaraq ayağa qalxanda adamın ürəyi qürur ilə dolurdu ki, bu insanın nə qədər böyük hörməti var.
"İslam iqtisadiyyatı" kitabını oxuyandan sonra iqtisad elminin dərinliklərinə heyran qaldım və bir daha hali oldum ki, elmi həqiqətlərin əksəriyyəti orta əsrlərdə Şərqdə olub. İslam iqtisadiyyatı özlüyündə çox dərin bir sistemdir, böyük bir nəzəriyyədir. Bu kitabı iki dəfə oxumuşam, çünki çətindir, birdən-birə qavramaq olmur. Bu kitabda göstərilir ki, xüms, zəkat və fitrədən yığılan pullar hara xərclənə bilər. Sovetlər dövründə islam iqtisadiyyatı haqqında heç nə deyilməmişdir və bu sahə öyrənilməmişdir. Amma tale belə gətirdi ki, Məmmədhəsən müəllim islamda iqtisadi məsələləri ümumiləşdirib "İslam iqtisadiyyatı" kimi nəhəng bir kitabı ortaya qoydu. Bu kitabı oxuyanların əksəriyyəti iqtisadçılardan ibarətdir və onlara çox böyük elmi fayda verdiyini qeyd ediblər. Əsl alimin xidməti budur.
Məmmədhəsən müəllim çox gözəl, sadə və təvazokar insan idi. Amma o sadəliyin arxasında böyük bir şəxsiyyət vardı. Məmmədhəsən müəllim elmli və əxlaqlı şəxsiyyət idi və bu keyfiyyətlər onu nəhəng bir insana çevirmişdi. O öz elmi, əxlaqı və tərbiyəsi ilə cəmiyyətdə böyük hörmət qazanmışdır.
Məmmədhəsən müəllim özündən sonra elə bir iz qoyub ki, nə vaxt islam iqtisadiyyatından söhbət getsə, həmişə o, xatırlanacaqdır. Məmmədhəsən müəllim yaradıcılığının çiçəklənən vaxtında dünyasını dəyişmişdir. Onun islam iqtisadiyyatının formalaşması ilə bağlı bir çox fikirləri vardı, əfsuslar olsun ki, yarımçıq qaldı. İnanıram ki, övladları arasında onun bu yolunu davam etdirən olacaqdır.
Mən də mərhumun ailəsinə başsağlığı verirəm. Ölüm haqdır. Heç kim son mənzildən qaça bilməz. Allah rəhmət eləsin!

**Prof. M.A.Əhmədov:**
Bu gün Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi iqtisad elmləri doktoru, professor, Əməkdar müəllim, 25 ildən artıq "İqtisadi nəzəriyyə" kafedrasının müdiri vəzifəsində çalışmış, böyük alim, gözəl pedaqoq, yaxşı dost M.Meybullayevin anadan olmasının 70 illik yubileyini qeyd edir.
Zənnimizcə, Məmmədhəsən müəllimin elmi-pedaqoji fəaliyyətini tarixi və məntiqi ardıcıllıq-



la XX əsrin sonuncu qərinəsində ölkəmizin ictimai-siyasi və bütünlükdə iqtisadi həyatında baş verən sistem dəyişiklikləri ilə qarşılıqlı əlaqə və asılılıqla nəzərdən keçirilməklə daha obyektiv qiymətləndirmək mümkündür. Məlumdur ki, XX əsrin 60-70-ci illərində Azərbaycan Respublikası özünün iqtisadi, sosial inkişafına görə, adambaşına düşən milli gəlirin, real gəlirlərin, orta aylıq əməkhaqqının, məşğulluğu və sosial-iqtisadi inkişafı xarakterizə edən digər keyfiyyət göstəricilərinin səviyyəsinə görə keçmiş SSRİ məkanında sonuncu yerlərdən birini tuturdu. 1969-cu ildə respublikamızda hakimiyyətə gələn ulu öndər Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafındakı geriliyin səbəblərinin sistemli təhlil olunmasını, araşdırılmasını, qabaqcıl dünya təcrübəsi və milli reallıqlara əsaslanaraq dəyərləndirilməsini, ölkəmizin malik olduğu resurslar balansını, xüsusən əmək ehtiyatları balansını, onlardan istifadə dərəcəsini, mövcud imkanlar daxilində hərəkətə gətirilə bilən potensialı nəzərə alaraq, xalq təsərrüfatının strukturunun təkmilləşdirilməsini, dinamik inkişafın təmin edilməsini, yaxın gələcək üçün prioritetlərin müəyyənləşdirilməsini respublikamızın iqtisadçı alimlərinin qarşısında konkret strateji vəzifə kimi qoydu. Ulu öndər respublikamızın iqtisadçı alimlərinin qarşısında qoyduğu strateji vəzifəni əməli cəhətdən effektiv reallaşdırmaq məqsədi ilə Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun müvafiq şöbələrində elmi-tədqiqat işlərinin mövzularında, problemlərində konkret dəyişikliklər apardı. Makroiqtisadi səviyyədə sosial-iqtisadi inkişafı sürətləndirmək məqsədi ilə elmi cəhətdən əsaslandırılmış və həyata keçirilməsi mümkün, zəruri təklif və tövsiyələr hazırlandı. Həmin tədbirlər planına uyğun olaraq, o vaxtlar gənc alim Ziyad müəllim Səmədzadənin rəhbərliyi ilə "Xalq təsərrüfatının sürəti və proporsiyaları" şöbəsi formalaşdırıldı və qısa zaman kəsiyində müvafiq dövrün tələblərinə cavab verən ciddi tədqiqatlar aparılmağa başlandı.
1971-ci ildə bizim şöbəyə İqtisad İnstitutunu yenicə bitirmiş M.Meybullayev kiçik elmi işçi vəzifəsinə qəbul olundu. Bizim şöbənin müdiri Ziyad müəllimin tövsiyəsi ilə Məmmədhəsən müəllim həmin illər üçün xüsusi aktuallıq kəsb edən və əslində bu gün də əhəmiyyəti qətiyyən azalmayan "İctimai əmək məhsuldarlığı və əhalinin real gəlirləri arasındakı nisbət problemi" ilə bağlı tədqiqat işi yerinə yetirirdi. Məmmədhəsən müəllimin apardığı sistemli təhlil və araşdırmalar nəticəsində Azərbaycanda əhalinin real gəlirlərinin ölkəmizdə aşağı olmasının başlıca səbəbləri konkret müəyyənləşdirilərək, belə vəziyyətin əsas səbəblərindən biri kimi həmin illərdə müttəfiq respublikalarda istehsal və istehlak olunan milli gəlirin hesablanması arasındakı əsassız fərqlər olduğu vurğulanmışdır.
O, bu illərdə apardığı tədqiqatların nəticəsi olaraq 1977-ci ildə uğurla dissertasiya işini müdafiə edərək, iqtisad elmləri namizədi adını aldı.
1976-1979-cu illərdə çalışdığı şöbənin SSRİ EA-nın İqtisadiyyat İnstitutu, Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutu, Məhsuldar qüvvələrin yerləşdirilməsi Şurası, Gürcüstan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu və AMEA-nın İqtisadiyyat İnstitutu ilə birgə yerinə yetirilən "Müttəfiq respublikalarda milli gəlirin təkrar istehsalı" probleminin işlənməsinin əsas tədqiqatçılarından biri idi.
Həmin dövrdən başlayaraq, Məmmədhəsən müəllimin tədqiqatları daha çox müttəfiq respublikalarda xalis məhsulun və onun iqtisadi artımla bağlı probleminə həsr olundu. Həmin tədqiqatların məntiqi nəticəsi olaraq, 1990-cı ildə "Чистый продукт и экономический рост" adlı əsaslı monoqrafiyası çapdan çıxdı.
1991-ci ildə yuxarıda qeyd edildiyi kimi, doktorluq dissertasiyası müdafiə edərək, iqtisad elmləri doktoru adına layiq görüldü.
1990-cı ildən əvvəlcə "Siyasi iqtisad" və 1992-ci ildən ömrünün sonuna kimi "İqtisadi nəzəriyyə" kafedrasında müdir vəzifəsində çalışmışdır. Həmin illərdə Məmmədhəsən müəllimin tədqiqatları bilavasitə inzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçid və yeni iqtisadi sistemin formalaşması və inkişafı şəraitində bir kafedra müdiri kimi keyfiyyətcə yeni dərsliklərin, dərs vəsaitlərinin, metodik göstərişlərin, proqramların hazırlanmasına və nəşrinə yönəldi. Qeyd etmək lazım-

# Məmmədhəsən Meybullayev – 70



dır ki, o, Azərbaycanda ilk dəfə olaraq, 1995-ci ildə çapdan çıxmış "Ümumi iqtisadi nəzəriyyə" dərsliyinin həmmüəlliflərindən və redaktorlarından biri olmuşdur. Daha sonra Məmmədhəsən müəllim birgə yazılmış və 1998-ci ildə dərc edilmiş "Azərbaycan iqtisadiyyatı", habelə 1999-cu ildə nəşr olunmuş "İqtisadi nəzəriyyə" dərsliyinin əsas müəlliflərindən, eyni zamanda, onun redaktorlarından biri olmuşdur.

Məmmədhəsən müəllim 2000-ci ildə 50 çap vərəqində olan "İslam iqtisadiyyatı" monoqrafiyasını çap etdirdi. O həm də müqəddəs bir Hacı kimi monoqrafiyada Azərbaycanda ilk dəfə olaraq, islam dini ilə iqtisadiyyatın qarşılıqlı əlaqəsini, Qurani-Kərimdə iqtisadi dəyərlər, islam iqtisadiyyatının əsas prinsipləri və bütünlükdə iqtisadi münasibətlər sistemini dərin təhlil edərək, indiki və gələcək nəsillər üçün mühüm əhəmiyyət kəsb edən nəticələrə gəlir, ümumiləşdirmələr edir və müvafiq tövsiyələr verir.

Məmmədhəsən müəllimin 2005-ci ildə müştərək yazılmış "İqtisadi təlimlər tarixi" dərsliyi də mühüm əhəmiyyət kəsb edir.

Məmmədhəsən müəllim 2010 və 2011-ci illərdə "Mikroiqtisadiyyata giriş" və "Makroiqtisadiyyata giriş" dərsliklərini yazmış və nəşr etdirmişdir.

Məmmədhəsən müəllimin 2015-ci ildə vəfatından sonra çapdan çıxmış "İqtisadi təhlükəsizlik nəzəriyyəsi" (müştərək yazılmış) dərsliyi də xüsusi qeyd olunmalıdır.

Ümumən, Məmmədhəsən müəllim elmi-pedaqoji fəaliyyəti dövründə 150-dən çox elmi əsər, 6 monoqrafiya, 9 dərs vəsaiti, 4 dərslik, çoxsaylı proqram və tədris materiallarının müəllifi olmuşdur. Onun bilavasitə elmi rəhbəri olduğu və uğurla müdafiə edən 23 aspirant və dissertantı, məsləhətçisi olduğu 3 elmlər doktorunun araşdırdığı problemlər Məmmədhəsən müəllimin daha geniş elmindən xəbər verir.

Məmmədhəsən müəllimin elmi-pedaqoji fəaliyyətini qiymətləndirərkən onu da xüsusi qeyd etmək lazımdır ki, o, müstəqilliyin ilk illərində ölkəmizin yeni iqtisadi sistemə keçməsi ilə əlaqədar olaraq, Milli Məclis tərəfindən qəbul olunmuş bir çox qanunların müzakirəsində, ekspertizasında fəal iştirak etmişdir. O, uzun illər boyu İxtisaslaşmış Müdafiə Şurasının, habelə AAK-ın iqtisadiyyat üzrə Ekspert Şurasının üzvü kimi ixtisaslı iqtisadçı kadrların hazırlanmasında da iştirak etmişdir. Məmmədhəsən müəllim, eyni zamanda, "Böyük İqtisadi Ensiklopediya"nın, İqtisad Universitetində nəşr olunan "Nəzəriyyə və praktika" jurnalının, "İqtisadiyyat" qəzetinin redaksiya heyətinin üzvü olmuşdur.

Prof. Məmmədhəsən müəllim Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli sərəncamına əsasən, təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

O, respublikanın ictimai-siyasi həyatında daima fəal iştirak edən böyük bir ziyalı, nəcib insan, gözəl ailə başçısı və yaxşı bir dost idi. Onun övladlarının üçü də fərqli sahələrdə çalışsalar da, atalarının yolunu davam etdirərək iqtisad üzrə fəlsəfə doktoru adına layiq görülmüşlər. Məmmədhəsən müəllim onu tanıyan dostlarının, həmkarlarının, çoxsaylı tələbələrinin qəlbində daima yaşayacaq.

**Prof. Ü.Q.Əliyev:**



Burada Məmmədhəsən müəllimin həyat və yaradıcılığı barədə kifayət qədər danışıldı. Mən onu qeyd etmək istəyirəm ki, professor Z.Ə.Səmədzadənin rəhbərlik etdiyi şöbədə Məmmədhəsən müəllim ilk tədqiqatlarını xalq təsərrüfatının mühüm proporsiyalarından olan ictimai əmək məhsuldarlığı ilə əhalinin real gəlirləri arasında olan nisbət üzrə aparmışdır. İlk dəfə olaraq, aparılan bu tədqiqatlardan aydın olmuşdur ki, rəsmi statistikanın dərc etdiyi məlumatlara görə, əhalinin real gəlirləri ictimai əmək məhsuldarlığından qat-qat geri qalır. Bu geriqalma prosesi o vaxtkı İttifaq səviyyəsinə görə respublikanın timsalında kəskin xarakter alırdı.

1982-ci ilin noyabr ayından o, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Siyasi iqtisad» kafedrasında dosent vəzifəsində çalışmağa başlamışdır.

1990-cı ilin yanvar ayından ömrünün sonuna qədər «İqtisadi nəzəriyyə» kafedrasının müdiri vəzifəsində işləmişdir. 1990-1992-ci illərdə tədris işləri üzrə prorektor vəzifəsində çalışmışdır.

M.Meybullayev 1991-ci ildə Leninqrad şəhərində Maliyyə və İqtisad Universitetində doktorluq dissertasiyası müdafiə etmiş, 1992-ci ildə professor elmi adını almışdır. O, əhalinin real gəlirləri və əmək məhsuldarlığının qarşılıqlı əlaqələrinin nəzəri-metodoloji aspektlərinin və iqtisadi inkişaf proporsiyalarının təkmilləşməsi, islam iqtisadiy¬yatının aktual problemlərinin dərin tədqiqatçısı kimi tanınır.

1995-1999-cu illərdə respublikada ilk dəfə tərtib olunan irihəcmli "İqtisadi nəzəriyyə" dərsliyinin redaktorlarından və müəlliflərindən biridir. Onun elmi redaktorluğu ilə 2002-ci ildə "İqtisadi təlimlər tarixi" dərsliyi hazırlanmışdır.

1996-cı ildə M.Meybullayev bir sıra Şərq ölkələrində - İranda, İraqda, İordaniyada, Səudiyyə Ərəbistanında olarkən onu islam mənəvi dəyərlərinin iqtisadiyyata olan təsir dairəsi maraqlandırmış və o, islam iqtisadiyyatı istiqamətində tədqiqatlar aparmağa başlamışdır. Nəticədə, 2000-ci ildə onun "İslam iqtisadiyyatı" adlı, 50 ç.v. həcmli monoqrafiyası ilk dəfə nəşr edilmişdir. Burada islam və iqtisadiyyatın qarşılıqlı əlaqəsi, Qurani-Kərimdə iqtisadi dəyərlər, islam iqtisadiyyatının əsasları, iqtisadi münasibətlər sistemi, dövlət quruculuğu, insan azadlığı, islam ölkələrinin sosial-iqtisadi inkişaf meyli və iqtisadi vəziyyətinin xülasəsi tədqiq edilir. Belə istiqamətli tədqiqat əsəri, şübhəsiz ki, müstəqil Azərbaycan Respublikasında formalaşacaq iqtisadi sistemdə öz müstəsna təsir və əhəmiyyətini göstərəcəkdir.

Professor M.Meybullayev islam dinini iqtisadi inkişafın ləngidici amili kimi qələmə vermək istəyən Qərbin şərqşünas tədqiqatçılarına cavab olaraq, "Dünya müsəlman ölkələrinin iqtisadiyyatı" adlı irihəcmli əsərini dərc etdirmişdir. Dünyanın 55 müsəlman ölkəsinin timsalında yazılan bu kitabda iqtisadi cəhətdən geri qalmanın səbəbləri əsaslı şəkildə göstərilir. Milli iqtisadiyyatın formalaş-masında dini-mənəvi dəyərlərin oynadığı rol, milli iqtisadi inkişaf modelinin seçilməsi, iqtisadi resurslardan istifadə olunması, qadınların iqtisadi fəallıq mühiti, yoxsulluğun aradan qaldırılması, insan potensialının inkişaf etdirilməsi, əhali artımı, istehlak problemi ilə bağlı bir sıra tutarlı və elmi cəhətdən əsaslandırılmış fikirlər irəli sürülür.

Professor M.Meybullayevin çalışdığı kollektivdə dərin hörmət və ehtiram qazanması onun respublikanın aparıcı iqtisadçı alimləri arasında da nüfuzunun artmasına səbəb olmuşdur. Təsadüfi deyil ki, çalışdığı elm ocaqlarında tanınmış alimlər onu səmimi dost, həmkar, sədaqətli insan, mənən saf, elmdə sözü, həyatda mövqeyi olan görkəmli alim kimi xarakterizə edirlər. M.Meybullayevin yeri ziyalılar arasında həmişə görünəcəkdir.

**Prof. A.Ş.Şəkərəliyev:**



Qədirbilən İqtisad Universitetinin kollektivi tanınmış alim, gözəl insan, iqtisad elmləri doktoru, professor M.Meybullayevin 70 illik yubileyini qeyd edir.

Məmmədhəsən müəllimin vəfatı məni çox sarsıtdı, çünki onun yoxluğunu qəbul edə bilmirəm. Məmmədhəsən müəllim insanlığın ən yüksək zirvəsində duran böyük ziyalı, sadə, xeyirxah və nəcib bir insan idi. O, bizim ailə üçün çox doğma və əziz idi. Məmmədhəsən müəllim həmişə dostları xeyirxahlığa, insanpərvərliyə, düzlüyə, savadlı olmağa səsləyirdi. Mən onunla bir qrupda təhsil almışdım. Bizim qrup tələbələrinin 3 nəfəri i.e.d., professor, 2 nəfəri isə i.e.n., dosentdir. Tale elə gətirdi ki, biz ikimiz eyni ildə - 1991-ci ildə Sankt-Peterburq şəhərində Maliyyə-İqtisad Universitetində doktorluq dissertasiyası müdafiə etdik. Məmmədhəsən müəllim bununla kifayətlənmədi, daima elmi axtarışda oldu.

Məmmədhəsən müəllimin zəngin elmi yaradıcılığı var idi. Onun iqtisad elmi sahəsində elmi məktəbi formalaşmışdı. O, həyatını Azərbaycan elminin, təhsilinin inkişafına həsr etmişdi. Biz uzun illər birlikdə çalışmışıq, Məmmədhəsən müəllimlə müştərək dərsliklər yazmışıq, Azərbaycan elminə öz töhfəmizi vermişik. Dostluğumuzun əsas səbəbi imanlı, elmli insanları sevmək, onlarla dostluq etmək idi. Bu amallar məni Məmmədhəsən müəllimlə birləşdirirdi. Vaxtaşırı olaraq Məmmədhəsən müəllimlə görüşərdik, elmi diskussiyalar edərdik, onun dini mövzularda olan söhbətlərinə qulaq asmaqdan doymazdım.

Məmmədhəsən müəllimin elmi yaradıcılığı ilə tanış olduqda görürük ki, Azərbaycanın sosial-iqtisadi inkişafı və problemləri ilə bağlı elmi əsəri, dərslikləri, dərs vəsaitləri, metodiki işləri diqqəti cəlb edir. O, elmi kadrların hazırlanmasına böyük qayğı göstərirdi. Məmmədhəsən müəllim həmişə deyərdi: «Müəllim öz tələbələrini sevməlidir və onun şəxsiyyətinə hörmət etməlidir». O, tədris etdiyi fənni mükəmməl bilən, hərəkətləri biliyinə uyğun gələn, tələbələrlə öz övladı kimi rəftar edən, onlara qarşı xeyirxah olan böyük insan idi.

Bildiyimiz kimi, insanın əsas keyfiyyətləri sadəlik, düz danışmaq və əxlaqi saflıqdır. Bu insani keyfiyyətlərin hamısı professor Məmmədhəsən Meybullayevdə cəmlənmişdi. Bütün bunlar sanki, A.P. Çexovun dediyi kimi, «İnsanda hər şey gözəl olmalıdır: sifəti də, geyimi də, qəlbi də, fikirləri də» müddəası ilə ahəngdar səslənir.

Məmmədhəsən müəllim mənəviyyatın pillələrini addım-addım qalxaraq, onun zirvəsinə yüksəlmiş, insani ləyaqəti qoruyub möhkəmləndirən bir iqtisadçı ziyalı idi. O, ona görə böyük ziyalıdır ki, iqtisadiyyatımızın inkişafını şüurlu, qəti və dəqiq tədqiq edirdi. Bunu isə mərhum professorun tədqiqatları təsdiq edir.

Məmmədhəsən müəllim ixtisaslaşdırılmış elmi və müdafiə şuralarının üzvü idi. O, elmi şuralarda tələbkarlıq və xeyirxahlıq göstərərdi, hamı onun çıxışlarından razı qalardı. O, elmi kadrların hazırlanmasında yaxından iştirak edərdi. Onun səmərəli fəaliyyəti təqdirəlayiqdir və xalqımız onu heç vaxt unutmayacaq.

Bu gün Məmmədhəsən müəllimin yoxluğunu onu tanıyanlar daha çox böyük kədər hissi ilə qəbul etdilər. Ona Allahdan rəhmət diləyirik. Bu gün Məmmədhəsən müəllim əbədiyyətə qovuşmuşdur. Onun əməlləri tələbələri və sevərləri tərəfindən davam etdirilir. Məmmədhəsən müəllimin əziz xatirəsi onu sevənlərin qəlbində əbədi yaşayır, çünki o, insanlar tərəfindən həmişə sevilib.

**Prof. Q.N.Manafov:**

İ.e.d., professor, Azərbaycan Respublikasının əməkdar müəllimi Məmmədhəsən Meybullayevin malik olduğu keyfiyyətləri bir cümlə ilə, qısa və sadə şəkildə xarakterizə etmək istəsək, demək lazımdır ki, o, çox yüksək təşki-



latçılıq qabiliyyətinə malik olan kafedra müdiri, dərin iqtisadi təfəkkürə və biliyə malik iqtisadçı alim, yüksək əxlaqi mənəviyyata malik bir insan, səmimi, xeyirxah, təvazökar bir dost və həmkar idi. Məmmədhəsən müəllimə xas olan bu keyfiyyətlərin hər birinin arxasında geniş bir məzmun, böyük bir dünya dayanırdı.

Məmmədhəsən müəllimi 1978-ci ildən tanıyırdım. Həmin vaxt Məmmədhəsən müəllim indiki AMEA-nın İqtisadiyyat İnstitutunda baş elmi işçi, mən isə onun işlədiyi "Xalq təsərrüfatının sürəti və proporsiyaları" şöbəsində Siyasi iqtisad ixtisası üzrə əyani aspirant idim. Bununla yanaşı, akademik Ziyad Səmədzadə Məmmədhəsən müəllimin doktorluq dissertasiyasının elmi məsləhətçisi, mənim isə namizədlik dissertasiyamın elmi rəhbəri idi. Dissertasiya işimin ilk variantı üzərində işimi başa çatdırdıqdan sonra onu müzakirə üçün şöbəyə təqdim etdim. Həmin dövrdə elmi işimin ilk rəyçilərindən biri kimi Məmmədhəsən müəllimin bildirdiyi dəyərli fikirlər, təklif və tövsiyələr dissertasiyanın elmi səviyyəsinin yüksəldilməsi, yol verilmiş çatışmazlıqların aradan qaldırılması istiqamətində əvəzsiz əhəmiyyət kəsb etdi.

Məhz həmin dövrdə mən ilk dəfə olaraq Məmmədhəsən müəllimi dərin iqtisadi biliyə malik obyektiv bir insan kimi tanıdım. 1982-ci ildən isə bir yerdə - indiki ADİU-nun "Siyasi iqtisad" kafedrasında çalışmağa başladıq. Ali məktəbdə əvvəlcə dosent, sonra isə professor, o cümlədən kafedra müdiri kimi çalışdığı 25 ilə yaxın müddət ərzində Məmmədhəsən müəllim tələbələrin dərin və hərtərəfli iqtisadi biliklərə malik olması üçün həmişə səylə çalışırdı. Keçən əsrin 90-cı illərində Azərbaycanda bazar iqtisdiyyatına keçidlə əlaqədar olaraq siyasi iqtisadın yeni tələblər baxımından tədrisi ilə bağlı ən vacib problemin həllində: Azərbaycan dilində siyasi iqtisad (iqtisadi nəzəriyyə) dərsliyinin hazırlanmasında Məmmədhəsən müəllimin bir kafedra müdiri kimi əməyi sonsuz dərəcədə əhəmiyyətə malikdir.

Məhz həmin dövrdə, konkret olaraq 1995-ci ildə M.Meybullayevin, T.Vəliyevin və Ə.Babayevin ümumi elmi redaktəsi ilə ilk dəfə olaraq "Siyasi iqtisad" kafedrasının əməkdaşları tərəfindən yazılmış "Ümumi iqtisadi nəzəriyyə" dərsliyi tələbələrin istifadəsinə verildi. Sonradan 1999-cu ildə həmin dərsliyin yenilənmiş və zənginləşmiş forması daha böyük nüsxələrlə dərc edildi.

Məmmədhəsən müəllim yazmış olduğu "İslam iqtisadiyyatı" adlı böyük həcmli monoqrafiyası ilə ölkəmizdə yeni bir tədqiqat istiqamətinin təməlini qoymuşdur. Bir çox iqtisadçı və dinşünas alimlər tərəfindən yüksək dəyərləndirilən bu əsər hazırda universitetimizdə tədris olunan "İqtisadi fikir tarixi" fənnində islam dinindəki iqtisadi dəyərləri öyrənmək və mənimsəmək baxımından müstəsna əhəmiyyət kəsb edir.

O, rəhbərlik etdiyi kafedranın elmi potensialının yüksəldilməsi, kafedra əməkdaşlarının müvafiq elmi adlar və elmi dərəcələr alması üçün əlindən gələni edirdi. Məmmədhəsən müəllimin elmi tədqiqatının predmetini bütövlükdə Azərbaycan iqtisadiyyatının bir çox aktual problemləri təşkil edirdi. Bu problemlər respublikanın və bəzi xarici ölkələrin müxtəlif nüfuzlu elmi nəşrlərində, habelə "İqtisadiyyat" qəzetinin müxtəlif nömrələrində dərc edilirdi.

İqtisadi biliklərin geniş ictimaiyyət arasında təbliğində mühüm rol oynayan, Azərbaycan televiziyasında yayımlanan və onun aparıcısı olduğu "İqtisadiyyat" rubrikası isə ən çox baxılan verilişlərdən idi.

**Dosent A.M.Əliyeva:**

İqtisad Universitetinin tarixində xidməti olan insanların əməyinə qiymət verilməsi və onların yad edilməsi kimi yaxşı bir təşəbbüs üçün universitetimizin rəhbərliyinə, hörmətli Ədalət müəllimə və digər təşkilatçılara, onun xatirəsini yad etmək üçün yubiley tədbirin-



də bizimlə iştirak edən qonaqlara, hörmətli Ziyad müəllimə, hörmətli Vasim müəllimə və çıxış edən yoldaşlara kafedra əməkdaşları adından təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Bu cəhətdən elmdə öz sözü, həyatda prinsipial mövqeyi olan, səmimi və xeyirxah, qayğıkeş bir insanın, mərhum kafedra rəhbərimizin 70 illik yubileyinin keçirilməsi hamımız üçün çox vacib və dəyərli bir hadisədir.

Məmmədhəsən müəllimin özünəməxsus bir xüsusiyyəti də o idi ki, o, iqtisadiyyat və mənəviyyat problemlərini qarşılıqlı tədqiq etmişdir. İqtisadi biliklərlə mənəvi-dini dəyərlərin əlaqələndirilməsi, islamda iqtisadi fikirlər, islam iqtisadi sistemi və s. problemlər haqqında çoxlu tədqiqatlar aparmış və bunları "İslam iqtisadiyyatı" adlı irihəcmli əsərində əks etdirmişdir. İqtisadiyyat və mənəvi dəyərlər problemi onun fəaliyyətinin vacib bir istiqaməti olan humanistlik, xeyirxahlıq və qayğıkeşlik kimi xüsusiyyətlərinin olmasından irəli gəlirdi. Kafedranın elmi potensialının artırılmasında, gənc tədqiqatçılara, alimlərə, dissertantlara, doktorantlara elmi adların alınmasında həmişə kömək, dəstək göstərməsi bunun bariz sübutudur. Burada Məmmədhəsən müəllimin ailəsi də iştirak edir. Biz üzümüzü onlara tutub deyirik: "İtkiniz, dərdiniz, ağrınız böyükdür. Lakin onun elmi, savadı və insani keyfiyyətləri haqqında deyilən yüksək fikirlər, səmimi ürək sözləri sizə bir təskinlikdir. O, həmişə yaddaşlarda belə də qalacaqdır".

**M.Meybullayevin qızı, dosent Sərvinaz Xanlarzadə:**

Mənim üçün atam haqqında danışmaq çətin olsa da, bəzi məlu-



matları qeyd etmək istərdim. O, öz elmi və əmək fəaliyyəti, prinsipiallığı və ədalətli mövqeyi ilə dərin hörmət və nüfuz sahibi olmuşdur. Bu gün bu tədbirdə atam həmkarları və iqtisadçı alimlər tərəfindən elmdə sözü, həyatda mövqeyi olan və humanist bir şəxsiyyət kimi ehtiramla yad edildi.

Bir məqamı da qeyd etmək istəyirəm ki, o, Ramazan ayına böyük önəm verərdi, onu xüsusi keçirərdi. Bilmirəm təsadüfdənmi, zərurətdənmi, onun 70 illik yubileyinə həsr olunmuş tədbir də məhz bu müqəddəs ayda keçirilir.

Bu tədbirin keçirilməsinə görə mən universitetimizin rektoru, hörmətli professor Ədalət müəllimə öz dərin minnətdarlığımı bildirmək istərdim ki, atamın xatirəsinə diqqət yetirmisiniz.

Həmçinin, Ziyad müəllimə, Vasim müəllimə və digər məruzəçilərə və çıxış edənlərə öz adımdan və ailəmiz adından təşəkkürümü bildirirəm ki, atamı xoş xatirələrlə yad etdiniz. Çox sağ olun!

**Prof. Ədalət Muradov:**

Məmmədhəsən müəllimin bir keyfiyyəti də ondan ibarət idi ki, o, kökünə bağlı olan bir insan idi. Bu şəxs Azərbaycan millətini sevən ziyalılardandı. Məmmədhəsən müəllim həm də dininə bağlı olan bir insan olub, Hacı idi. Burada mənim ünvanıma təşəkkürlər səsləndi, amma mən tam səmimi olaraq bildirirəm ki, bu, rektor olaraq mənim borcumdur və bu işi təşkil etdiyim üçün qürur duyuram. İqtisad Universiteti öz dəyərlərinə sahib çıxmalıdır. Bizim dəyərlərimiz bizim ziyalılarımızdır. Bizdə olan dəyərlər digər təşkilatlarda yoxdur və yaxud bizimlə müqayisədə çox azdır.

**Bizə dəyər qatan məhz Məmmədhəsən müəllim kimi ziyalılarımızdır. Məmmədhəsən müəllim "İslam iqtisadiyyatı"nı tədqiq edən bir nömrəli tədqiqatçıdır. Mən təklif edirəm ki, İqtisad Universitetində yaratdığımız İslam İqtisadiyyatı Tədqiqat Mərkəzinin adı "Məmmədhəsən Meybullayev İslam İqtisadiyyatı Tədqiqat Mərkəzi" olsun və bu Tədqiqat Mərkəzinə də rəhbərlik etmək səlahiyyəti Sərvinaz Xanlarzadəyə tapşırılsın. Düşünürəm ki, islam iqtisadiyyatı Azərbaycanda kifayət qədər tədqiq olunmamış və ya az tədqiq olunmuş önəmli və vacib sahələrdən biridir. Biz universitet olaraq bu sahədə önə çıxmaq potensialına malikik.**

Allah Məmmədhəsən müəllimə rəhmət eləsin, qəbri nurla dolsun. Allah övladlarına, doğmalarına uzun ömür qismət etsin. Bizim üçün böyük qürur və fəxrdir ki, Məmmədhəsən müəllimin övladı bizimlə əməkdaşlığı davam etdirir. Əminəm ki, bu əməkdaşlığımız uzun illər davam edəcəkdir. Hər birinizə fəal iştirak etdiyiniz üçün təşəkkür edirəm.

# “Məktəblilərin İKT yönümlü peşələrə istiqamətlənməsi üçün tədbirlərin keçirilməsi” adlı layihə icra olunur



Artıq bir aydan çoxdur ki, Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ilin 1-ci qrant müsabiqəsinin qalibi olmuş “Məktəblilərin İKT yönümlü peşələrə istiqamətlənməsi üçün tədbirlərin keçirilməsi” adlı layihə "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyi tərəfindən icra edilməyə başlanılmışdır.

Peşəyönümü işi gənc nəslin təlim-tərbiyə sistemində mühüm yer tutan problemlərdəndir. Bu problem daima təhsil sitemi-nin diqqət mərkəzində olmuşdur. Lakin son zamanlar bu işə diqqət azalmışdır. Əvvəllər (20 il öncə) məktəblərdə peşə seçimi adlı fənn tədris edilirdi. Bütün bu amillər problemin aktuallığını göstərir.

Gənclərlə peşəyönümü istiqamətində işlərin təşkili düzgün peşə seçimi, onların potensial və qabiliyyətlərinə uyğun peşələrin seçilməsi, ölkə iqtisadiyyatının tələblərinə uyğun olaraq aktual peşələrin seçilməsi üçün çox vacibdir. Bu məsələ ölkənin təhsil, iqtisadi, məşğulluq, demoqrafik və gənclər siyasətinin mühüm istiqamətlərindən biridir. Bu məsələ, eyni zamanda gələcəkdə ölkənin məşğulluq probleminin həllində, gənclərlə əlavə təhsilin təşkilində də əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, İKT sektoru Azərbaycanda prioritet sahə olub, qeyri-neft sektorunun inkişafında mühüm rola malikdir. Lakin İKT sektoru digər texniki sahələr kimi insan kapitalının inkişafından çox asılıdır.

Bu sahədə Azərbaycanda peşəkar kadrlara ehtiyac var, gələcəkdə belə kadrlara daha da böyük ehtiyac olacaqdır. Bu səbəbdən İT sahəsinə gəncləri yönəltmək məqsədəuyğundur.

Layihənin ilkin mərhələsində məqsəd ölkənin əmək bazarında İT sahəsi üzrə hal-hazırda tələb olunan peşələrin siyahısını müəyyən etməkdir.




# Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə “Biomüxtəliflik haqqında kitabın nəşri” adlı layihə icra olunur

Artıq bir aydan çoxdur ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ilin 1-ci qrant müsabiqəsinin qalibi olmuş “Biomüxtəliflik haqqında kitabın nəşri” adlı layihə üzrə intensiv işlər aparılmaqdadır. "Gənclik və Maarifçilik" İctimai Birliyinin bu layihəsi canlı təbiətlə bağlı gənclərin maarifləndirilməsinə, bizi əhatə edən aləm haqqında bilgilərinin zənginləşdirilməsinə ünvanlanmış “Biomüxtəliflik haqqında populyar dildə” adlı kitabın hazırlanması, çapı və elektron formada nəşrinə və ümumən bioloji müxtəlifliyin, xüsusən də yerli bitki və heyvan resurslarının təbliğinə həsr edilmişdir.

Layihənin ilkin mərhələsində Azərbaycanda və dünyada nəşr edilmiş müvafiq kitab, broşüra və məqalələr toplanılmış, müvafiq qeydlər aparılmışdır. Kitabın strukturu və mündəricatı hazırlanmışdır. Hazırda müvafiq sahə alimləri ilə müzakirələr aparılmaqla mündəricat təkmilləşdirilir. Yaxın zamanda kitabın yazılmasına başlanılacaqdır.




# Gürcüstandakı azərbaycanlılar UNEC-i seçir



UNEC-in professor-müəllim heyəti Gürcüstandakı Azərbaycan məktəblərinə səfər ediblər.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə reallaşan səfərin məqsədi Gürcüstanda yaşayan azərbaycanlıların ana dilində ali təhsil almasına dəstək vermək, həmvətənlərimizi ali təhsilə yönəltmək və abituriyentləri UNEC barədə məlumatlandırmaqdır.

“Müəssisənin iqtisadiyyatı” kafedrasının müdiri, dosent Əli Hacıyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstan Respublikasının Bolnisi və Dmanisi rayonlarının orta məktəblərinin yuxarı sinif şagirdləri ilə görüşüblər. Görüşdə məktəblilərə regionun ən böyük iqtisadyönümlü universiteti olan UNEC barədə ətraflı məlumat verilib. Bildirilib ki, Azərbaycanın 4 dildə təhsil verən yeganə ali təhsil ocağı olan UNEC-ə xarici ölkə vətəndaşlarının qəbulu tamamilə elektronlaşdırılıb. Abituriyentlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda, UNEC-də təhsil almaq hüququ qazanırlar.

UNEC-ə qəbul prosesinin sadələşdirilməsi məktəblilərin diqqətini cəlb edib. Onlar UNEC-də tədris olunan ixtisaslarla maraqlanıblar. Dünyanın nüfuzlu universitetləri ilə həyata keçirilən ikili diplom və mübadilə proqramları şagirdlərin marağına səbəb olub. Məktəblilər dörd ildə iki ixtisasa yiyələnmək imkanı tanıyan UDİD proqramını isə tələbələr üçün əvəzsiz fürsət adlandırıblar.

Səfər çərçivəsində həmvətənlərimizə UNEC-in magistr proqramları barədə də ətraflı məlumat verilib. Bildirilib ki, UNEC-in müasir tələblərə cavab verən Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində 11 ixtisas, 39 ixtisaslaşma üzrə 4 dildə tədris həyata keçirilir. Mərkəzin tələbələri UNEC-in diplomu ilə yanaşı, Avropanın və Türkiyənin nüfuzlu universitetlərinin diplomlarını əldə edə bilirlər.

Görüşlərdə UNEC-in tanıtım videoçarxı nümayiş olunub, suallar cavablandırılıb. Görüşdə iştirak edənlər Cənubi Qafqazın ən böyük iqtisadyönümlü universitetində təhsil imkanları ilə tanışlıqdan sonra UNEC-in tələbəsi olmaq istədiklərini bildiriblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# AQRAR SAHƏDƏ YÜKSƏK MƏHSULDARLIQ MODERN SU TƏCHİZATI SİSTEMİNİN YARADILMASINDAN KEÇİR

**Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan dövlətçilik modeli və bunun əsas sütunlarından biri sayılan uğurlu iqtisadi siyasət Azərbaycanın dayanıqlı və davamlı inkişafını təmin etmişdir. Respublikamızda istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində kənd təsərrüfatı - aqrar bölmə xüsusi çəkiyə və öncül mövqeyə malik olmuş, real sektorda çalışanların az qala yarısı bu sahənin payına düşmüşdür. Kənd təsərrüfatının bugünkü uğurlarından danışarkən, bunu təmin edən iki amil mütləq nəzərə alınmalıdır: birincisi, ulu öndər Heydər Əliyev tərəfindən 1998-ci ildə uğurla gerçəkləşdirilən torpaq islahatları, ikincisi, neftdən əldə olunan gəlirlərin digər sahələrlə bərabər, kənd təsərrüfatının, xüsusilə də özəl bölmənin inkişafına yönəldilməsi. Hər iki amil kənd təsərrüfatının bazar prinsipləri əsasında inkişafına, sahibkarlıq zümrəsinin təşəkkül tapıb formalaşmasına geniş yol açdı. Ümummilli liderin layiqli davamçısı İlham Əliyev respublikaya prezident seçildikdən sonra 2004-cü ildən başlayaraq bütün fəaliyyəti boyu ölkənin sürətli və sıçrayışlı sosial-iqtisadi inkişafını təmin edə bildi. Bu inkişaf və yüksəliş dalğası respublikanın heç bir rayonundan, yaşayış məntəqəsindən, kəndindən yan keçmədi, sosial-iqtisadi sferanın bütün sahələrinə nüfuz etdi. Neft strukturundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektoruna, o cümlədən kənd təsərrüfatına irihəcmli investisiyalar yönəldilməyə başladı. Regionların tarazlı inkişafını təmin etmək üçün 2004-cü ildən bu günə kimi üç mərhələ Dövlət Proqramları təsdiq edilmiş, həmin proqramların icrası nəticəsində regionların sosial-iqtisadi infrastrukturu köklü şəkildə dəyişmişdir. Bundan başqa, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf», «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair», «Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair üç mərhələ Dövlət Proqramı» və digər proqramların uğurla icrası Azərbaycanı uzunmüddətli sosial tərəqqi və sosial yüksəliş yoluna çıxarmışdır.**

**2017-ci il kənd təsərrüfatının inkişafında islahatlar ili kimi tarixə düşmüş, məhz həmin ildə ölkə başçısı tərəfindən respublikanın aqrar bölmədə uzunmüddətli strateji hədəfləri və Yol Xəritəsi müəyyən edilmişdir. 2017-ci ildə, həmçinin cari il üçün nəzərdə tutulan vəzifələr yüksək şəkildə yerinə yetirilmiş, kənd təsərrüfatının ənənəvi sahələrində – pambıqçılıqda, çayçılıqda, tütünçülükdə, baramaçılıqda, bostan və tərəvəz bitkilərinin istehsalında ciddi nailiyyətlər qazanılmış, istixana təsərrüfatlarının sayı və orada istehsal olunan məhsulun çeşidi genişləndirilmişdir.**

Kənd təsərrüfatının və aqrar bölmənin inkişafında meliorasiya və su təsərrüfatı xüsusi önəm daşıyır. Çünki Azərbaycanda əkin sahələrinin, demək olar ki, əksəriyyəti suvarılan torpaqlardır. Təsərrüfat işlərində ən narahatçılıq doğuran problem su təminatı ilə bağlıdır. Ölkədə mövcud su mənbələri bu problemi tam şəkildə həll etməyə imkan vermir.

Lakin buna baxmayaraq, respublikada bu istiqamətdə 2004-cü ildən başlayaraq bu günə kimi ciddi addımlar atılmış, böyük irəliləyişlər əldə olunmuşdur. Dövlət başçısı hər zaman meliorasiya və su təsərrüfatı sahəsinə diqqət və qayğı göstərmişdir ki, bunun sayəsində respublikamızda mövcud meliorasiya və irriqasiya sistemlərinin istismarı xeyli yaxşılaşmış, bu sahəyə ayrılan investisiya vəsaitlərinin həcmi 20 dəfə, istismar xərclərinin həcmi 6 dəfə artmışdır. Eyni zamanda, meliorasiya və su təchizatı qurumlarının qarşısına ciddi vəzifələr və təxirəsalınmaz tələblər qoyulmuşdur.

Cari ilin yanvar ayının 29-da "Regionların 2014-2018-ci illərə dair sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın dördüncü ilinin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: **«Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir. Beləliklə, biz 2017-2018-ci illərdə 200 mindən çox hektara suyun təminatını təşkil edəcəyik. Bir neçə önəmli kanal layihələri icra ediləcəkdir. Dövlət İnvestisiya Proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Dövlət İnvestisiya Proqramında bu məsələ ilə bağlı olan bütün layihələr ilin sonuna qədər icra olunmalıdır».**

Cənab prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq respublikamızın bütün bölgələrində əməli tədbirlər görülür. Həyata keçirilən tədbirləri dilə gətirən ölkə başçısı pambıqçılığın inkişaf məsələlərinə dair Bərdə rayonunda keçirilən respublika müşavirəsində demişdir ki, **son illərdə meliorasiya sahəsində böyük layihələr icra edilmişdir. On minlərlə hektar torpaqda meliorativ tədbirlər görülmüşdür. O cümlədən Bərdə rayonunda və digər rayonlarda bu sahəyə çox böyük vəsait ayrılmış və digər rayonlarda bu sahəyə çox böyük vəsait ayrılmış və digər kompleks tədbirlər görülmüşdür. Pambıqçılığın inkişafı ilə bağlı mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılmışdır.**

Təkcə son bir ildə «Azərbaycan Meliorasiya və su Təsərrüfatı» ASC-nin nəzdində fəaliyyət göstərən «Azdövsutəslayihə» İnstitutu tərəfindən hazırlanan layihələrin siyahısına baxsaq, həyata keçirilən tədbirlərin həcmi və miqyasının necə böyük olduğu diqqəti çəkir. Bunlar aşağıdakılardır: Yuxarı Mil Kanalının tikintisi, 19205 hektar sahəni suvarma suyu ilə təmin edəcək Neftçala magistral kanalının nasos stansiyasının tikintisi, Şəmkir Maşın Kanalının I növlə tikintisi, Şabran Aqroparkında infrastruktur meliorasiya tədbirləri, Goranboy və Samux rayonları ərazisində yaradılacaq Aqroparkın suvarma suyu ilə təmin edilməsi, Qax rayonu ərazisində yaradılan Aqropark ərazisinin suvarma suyu ilə təmin edilməsi, əhalisi 375 min nəfərə yaxın olan 36 şəhər və rayonun 136 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı sahələrin suvarma suyu ilə təmin edilməsi, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 150 subartezian quyusunun layihələndirilməsi və qazılması, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, Ağsu rayonunda yerləşən Cavanşir su anbarında tikinti-bərpa işlərinin aparılması... Bundan başqa, hal-hazırda aşağıdakı layihələrin hazırlanması üzərində iş gedir: Şəmkir Maşın Kanalının II növlə tikintisi, əhalisi 592736 nəfərə yaxın olan 38 şəhər və rayonun 249 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı sahələrin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 subartezian quyusunun layihələndirilməsi və qazılması, 3300 hektar torpaq sahəsini əhatə edəcək Xəzər-Pirallahı və Xızı rayonlarının zeytun və badam salınacaq plantasiyalarının suvarma suyu ilə təminatı, 5660 hektar sahəni suvarma suyu ilə təmin edəcək Hacıqabul rayonu ərazisində suvarma-meliorasiya tədbirlərinin görülməsi, 12000 hektar sahəni əhatə edəcək Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın suvarma suyu ilə təmin edilməsi, 52638 hektar sahəni suvarma suyu ilə təmin edəcək Araz çayının yeni qolu vasitəsilə suvarılan sahələrin istifadəyə verilməsi, həmçinin bu tədbirlərlə paralel olaraq sel və daşqın təhlükəsi olan çayların zərərli təsirlərinə qarşı mühafizə tədbirləri, suvarma sistemlərində qəza vəziyyətlərinin aradan qaldırılması və digər tədbirlərin layihə-smeta sənədlərinin hazırlanması. Şübhəsiz ki, belə irimiqyaslı meliorasiya və irriqasiya tədbirlərinin görülməsinə böyük miqdarda maliyyə vəsaitləri tələb olunur. Artıq 14 ildir ki, ardıcıl olaraq istər Azərbaycan hökuməti, istərsə də beynəlxalq maliyyə qurumları, bank təşkilatları tərəfindən meliorasiya və su təchizatı sisteminin yaxşılaşdırılmasına, yenidən qurulmasına və modernləşdirilməsinə maliyyə vəsaitləri, güzəştli kreditlər və investisiyalar yönəldilir. Bunların hesabına ölkə miqyasında saysız-hesabsız meliorativ tədbirlər həyata keçirilmiş və bu proses davam edir. Yuxarıda sadalanan layihələr, görülən tədbirlər bütün işlərin hamısını tam şəkildə əks etdirmir. Çünki reallıqda həyata keçirilən irili-xırdalı tədbirlərin sayı həddindən artıq çoxdur. Cənab prezident bundan sonra da meliorasiya və suvarma təchizatının yaxşılaşdırılması üzrə tədbirlərin davam etdiriləcəyini dilə gətirmişdir. Çünki ölkədə başdan-başa istixana təsərrüfatları yaradılır. 5 aqropark istifadəyə verilib, daha 32 aqroparkın tikintisi davam etdirilir. Kənd təsərrüfatında intensiv bağçılıq, bostançılıq tədbirləri həyata keçirilir, əkin sahələrinin damcı və yağdırma üsulu ilə suvarılmasının tətbiqinə başlanılıb və bu şəbəkənin genişləndirilməsi hədəf götürülüb.

Bütün bunlar həm sudan qənaətlə istifadə etməyə və məhsulun keyfiyyətinin yüksəlməsinə, həm də məhsul istehsalının həcminin və çeşidinin, ixrac imkanlarının artmasına təkan verəcək. Sonucda xırda və orta sahibkarlıq subyektləri qazanacaq, azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafında yeni mərhələ başlanacaqdır.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# "BAKELEKTROQAYNAQ " ASC-nin31 dekabr 2017-ci il tarixinə BALANS HESABATI

*(Azərbaycan manatı ilə*

| | Qeydlər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Torpaq, tikili və avadanlıq | *8* | 2 070 340 | 2 225 935 |
| Uzunmüddətli debitor borcları | *9* | 1 548 663 | 1 548 663 |
| Sair uzunmüddətli maliyyə aktivləri | *10* | 0 | 0 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | **3 619 003** | **3 774 598** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | | |
| Ehtiyatlar | | 0 | 0 |
| Qısamüddətli debitor borcları | *11* | 1 145 474 | 930 140 |
| Pul vəsaitləri və onların ekvivalentləri | *12* | 155 | 135 |
| Sair qısamüddətli aktivlər | | 0 | 0 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | **1 145 629** | **930 275** |
| **CƏMİ AKTİVLƏR** | | **4 764 632** | **4 704 873** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL:** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | *13* | 20 578 128 | 20 578 128 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (17 253 397) | (17 314 100) |
| **CƏMİ KAPİTAL:** | | **3 324 731** | **3 264 028** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Uzunmüddətli kreditor borcları | *14* | 1 365 508 | 1 365 508 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | **1 365 508** | **1 365 508** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | | |
| Qısamüddətli kreditor borcları | *15* | 74 393 | 75 337 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | **74 393** | **75 337** |
| **CƏMİ ÖHDƏLİKƏR:** | | **1 439 901** | **1 440 845** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **4 764 632** | **4 704 873** |

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2016-ci il tarixinə qalıq** | **20 578 128** | **(17 314 072)** | **3 264 028** |
| *Hesabat dövründə xalis mənfəət (zərər)* | *0* | *60 676* | *60 676* |
| *Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər)* | *0* | *0* | *0* |
| **31 dekabr 2017-cı il tarixinə qalıq** | **20 578 128** | **(17 253 397)** | **3 324 731** |
| *2017-cı il üzrə kapitalda ümumi dəyişikliklər* | *0* | *60 676* | *60 676* |

| | Qeydlər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|---|
| Müştərilərdən daxil olan pul vəsaitləri | | 178 914 | 157 333 |
| Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri | | (178 894) | (157 884) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | | **20** | **(551)** |
| Ödənilmiş mənfəət vergisi | | 0 | 0 |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **20** | **(551)** |
| Əsas vəsaitlərin satışı | | | |
| Əsas vəsaitlərin alışı | | 0 | 0 |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | 0 | 0 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | | 0 | 0 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin daxilolmaları | | 0 | 0 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **0** | **0** |
| Borc şəklində alınmış pul vəsaitlərinin daxilolmaları | | 0 | 0 |
| Borc şəklində alınmış pul vəsaitlərinin xaricolmaları | | 0 | 0 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | **0** | **0** |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | | 0 | 0 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **20** | **(551)** |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində* | | 135 | 686 |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda* | | 155 | 135 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri** | | | |
| Pul vəsaitləri | | 155 | 135 |
| Bank depozitləri | | 0 | 0 |

| | Qeydlər | 31.12.2017 | 31.12.2016 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | | 0 | 0 |
| Satışın maya dəyəri | | 0 | 0 |
| **Ümumi mənfəət** | | **0** | **0** |
| Sair əməliyyat gəlirləri | 5 | 335 528 | 334 800 |
| Kommersiya xərcləri | | 0 | 0 |
| İnzibati xərclər | 6 | (187 715) | (196 340) |
| Sair əməliyyat xərcləri | 6 | (70 330) | (71 956) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **77 483** | **66 504** |
| Maliyyə gəliri | | 0 | 0 |
| Maliyyə xərcləri | | 0 | 0 |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **77 483** | **66 504** |
| Mənfəət vergisi | | (15 351) | (13 318) |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **62 132** | **53 186** |

Biznes Audit

MÜSTƏQİL AUDİTORUN HESABATI

"BAKELEKTROQAYNAQ" Açıq Səhmdar Cəmiyyətinin Təsisçilərinə və Rəhbərliyinə:

*RƏY*

Biz. "Bakelektroqaynaq"Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir

*Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

*Əsas audit məsələləri*

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

*Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə. müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda. BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Məhərrəm Əliyev
Baş direktor

BİZNES AUDİT
MƏSULİYYƏTLİ

Rəşid Balakişiyev
Auditor

04 aprel 2018-ci il
Bakı, Azərbaycan Respublikası

2

# Aygün Səmədzadənin "İstiqlal"ı və "Azərbaycan"ı





İyunun 9-da tanınmış və sevilən bəstəkar, Xalq artisti Aygün Səmədzadənin "Yaşıl Teatr"da Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyinə həsr olunmuş "Azərbaycan" adlı sənət gecəsi keçirilib. Sənət gecəsi bəstəkarın yazdığı gözəl musiqi-rəqs nömrəsi və Aygün Səmədzadənin özünün ifasında "Biri varmış, biri yoxmuş" mahnısı ilə başlayıb. Bəstəkar həmin mahnını özünün nədən və birinci olaraq ifa etməsinə açıqlıq gətirərək bildirib ki, son konsertində həmin mahnı ən sonda ifa edilib və sevənləri tərəfindən çox bəyənilib: "Ona görə də bu dəfə konsertimə həmin mahnı ilə başlamaq qərarı verdim". A.Səmədzadə çox həyəcanlı olduğunu da bildirib: "Artıq neçənci dəfədir konsert verirəm, amma çox həyəcanlıyam. Çünki buranın ab-havası, məsuliyyəti tamam başqadır". Sonra bəstəkarın AXC-nin 100 illiyinə ithaf etdiyi "İstiqlal" marşı gənc və istedadlı müğənnilərin ifasında səslənib və gurultulu alqışlarla qarşılanıb. Bəstəkar "İstiqlal" marşının tarixçəsinə toxunub və bildirib ki, o, cəmi bir günün içində ərsəyə gəlib: "Bilirsiniz ki, bu il AXC-nin 100 illiyidir. Bu, çox möhtəşəm bir hadisədir. "İstiqlal" marşı da məhz bir anın içində, bu il mayın 28-də yarandı. İnanıram ki, çox bəyəniləcək. Ümumiyyətlə, Azərbaycanla bağlı yazdığım 3 mahnımdan 2-si məhz mayın 28-də yaranıb…". A.Səmədzadə, eyni zamanda, gecənin "Azərbaycan" adlandırılmasına aydınlıq gətirib: "Mən Azərbaycanımızı təkcə onun təbiətinə, təbii sərvətlərinə, gözəlliklərinə görə sevmirəm, bunlar öz yerində, mən Azərbaycanı Azərbaycan olduğu üçün sevirəm. Çünki Azərbaycan Vətəndir! Ona görə də gecəni "Azərbaycan" adlandırdım. Bu, həm də AXC-nin 100 illiyinə kiçicik bir töhfədir". Bəstəkar, həmçinin Cümhuriyyətin 100 illiyinə bir gün qalmış bir sıra həmkarları ilə birlikdə yüksək fəxri adlara layiq görülməsinə münasibətini bildirib: "Cümhuriyyətin 100 illiyinə bir gün qalmış Azərbaycanın Xalq artisti fəxri adına layiq görüldüm… Buna görə hər kəsə, Azərbaycan dövlətinə, ölkə Prezidenti İlham Əliyev cənablarına və birinci xanım, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığımı, təşəkkürlərimi bildirirəm. Eyni zamanda, hörmətli mədəniyyət nazirimiz Əbülfəs Qarayevə minnətdarlıq edirəm. Bu, mənim üçün böyük məsuliyyətdir". Daha sonra bəstəkarın millət vəkili Qənirə Paşayevanın, Xanım İsmayılqızının, Kəmalə Abıyevanın və digər şairlərin sözlərinə yazılmış və bir-birindən gözəl mahnıları, həmçinin, rəqs nömrələri ifa edilib. Bunlar arasında "Dəniz" vokal kompozisiyasını, "Azərbaycan"ı, "Məktəb illəri"ni, "Eşq"i, "Gecikmiş etiraf"ı, "Bunun adı dəli eşq, bilirəm"i, "Yağış"ı, "Tut ağacı"nı və s. qeyd etmək olar. Gecənin yaddaqalan anlarından biri bəstəkarın yeni yazdığı və özünün də səhnədə izlədiyi "Humay" rəqsi olub. Bəstəkar rəqslə bağlı deyib: "Bu rəqsdə bilmirəm, nəsə dağ havası var… Atam da deyir ki, özün necə rəqs edirsənsə, rəqslərin də ona bənzəyir (gülür)… Bu rəqsin tarixçəsi isə belə olub: mən əslində heç zaman ailəmi sənət məsələlərimə daxil etməmişəm. Ancaq balaca Humaya lay-lay çalarkən məhz bu cür zümzümə edirdim. O, ancaq bunu dinləyərək, bunu xoşlayaraq, yuxuya gedirdi. Humay rəqsi də məhz həmin lay-lay, zümzümə əsasında yaranıb". Gecənin maraqlı və unudulmayacaq anlarından biri də gənc ifaçılardan birinin bəstəkarın çox məşhur olan və sevilən sənətçi Aygün Bəylərin ifasında səslənən "Tut ağacı" mahnısını ifa etməsi ilə bağlı olub. Belə ki, gənc xanım müğənni "Tut ağacı" nı ifa edərkən, birdən tamaşaçılar arasında yer alan Aygün Bəylər yerindən mahnını ifa etməyə və səhnəyə doğru gəlməyə başlayıb. Bu isə tamaşaçıların riqqətinə və gur alqışlarına səbəb olub. Aygün Bəylər gənc müğənniyə yaxınlaşaraq, mahnını duet şəklində oxumağa davam edib və bu zaman Aygün Səmədzadə də onlara qoşularaq, "Tut ağacını" birlikdə ifa ediblər. Aygün Bəylər, öz növbəsində Aygün Səmədzadəyə uğurlar arzulayıb. Gecənin unudulmayacaq anlarından biri isə Türkiyənin korifey sənətçilərindən olan və Azərbaycan cəmiyyəti, musiqisevərləri tərəfindən böyük maraqla izlənilən müğənni Müşərəff Akayın gecəyə qatılması və səhnəyə çıxması olub. O, gecədə iştirakından və növbəti dəfə Azərbaycanda olmağından məmnunluq duyduğunu bildirib: "Bir gün avtomobilimlə gedirdim. Yolda "Ruhumuz qovuşacaq" mahnısını dinlədim, avtomobilimi kənara çəkib saxladım, təkrar-təkrar dinlədim, mahnı möhtəşəm idi, məni bərk tutmuşdu, xüsusilə də "qiyamət qopacaq" sözləri. Sonra həmin mahnını repertuarıma daxil etdim, studiyada yazdırdım. Artıq radioda, "Kanal D"-də də səslənib. İnanıram ki, bu mahnı da mənə uğur gətirəcək. Ancaq mən mahnını "Əzab" adlandırdım. Mahnını ifa etsəm də, onun bəstəçisinin kim olduğunu bilmirdim. Bu məsələdə mənə yenə 30 illik qədim və əziz dostum Etibar Babayev kömək etdi. Ondan sonra bildim ki, bu, son dərəcədə möhtəşəm mahnının bəstəkarı Aygün xanım imiş...". Daha sonra ünlü sənətçi özünün "Əzab" adı verdiyi, bəstəsi Aygün Səmədzadəyə, sözləri Xanım İsmayılqızına aid olan "Ruhumuz qovuşacaq" mahnısını ifa edib. İfa tamaşaçılar, musiqisevərlər tərəfindən böyük alqışlarla və ayaqüstə qarşılanıb. A.Səmədzadə də, öz növbəsində xanım Akaya gecədə iştirakına və gözəl ifasına görə minnətdarlığını bildirib və gələcəkdə birgə albom buraxılacağının anonsunu verib.

**Kamil HƏMZƏOĞLU**














"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# CƏFƏROV MƏMMƏD YUSİF

CƏFƏROV (Cəfərzadə) Məmməd Yusif Hacıbaba (14.3.1885, Bakı- 15.5.1938, Bakı, Şağan k.) - Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri; Cümhuriyyət Parlamentinin sədr müavini (2.2.1920 - 27.4.1920). Bakı Kişi Gimnaziyasını (1907) və Moskva Dövlət Universitetinin hüquq fakültəsini (1912) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil illərində Moskvada oxuyan azərbaycanlı tələbələrin yaratdığı "Azərbaycan etnoqrafik konsert gecələri"nin və "Azərbaycan həmyerlilər təşkilatı"nın üzvü, sonralar isə rəhbərlərindən biri olmuşdur.

Ali təhsilini başa vurduqdan sonra Bakıya qayıdaraq, məhkəmədə andlı hakim köməkçisi vəzifəsində çalışmışdır. Hüquqşünas kimi şəhər əhalisinin hörmətini qazanan 27 yaşlı Məmməd Yusif 1912-ci ildə Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən 4-cü Dövlət Dumasına deputat seçilmişdir. O, 4-cü Dövlət Dumasında Cənubi Qafqazdan yeganə müsəlman deputat idi. M.Cəfərov 1912-17-ci illərdə Sankt-Peterburqda fəaliyyət göstərən 4-cü Dövlət Dumasının 5-ci bölməsinin, Müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyalarının üzvü seçilmişdi. O, dumada Rusiya baş nazirinin hesabatı, gömrük departamentinin xərcləmə dərəcəsi, köçürmə idarəsi üzrə xərclərin smetasına dair büdcə komissiyasının hesabatı, 1913-cü ildə Cənubi Qafqazın bəzi yerlərində məhsulsuz qalmış əhaliyə kömək tədbirləri, müharibə və s. məsələlərin müzakirəsi zamanı çıxışlar etmiş, çar hökumətinin müstəmləkəçilik siyasətini, Cənubi Qafqaz əhalisinə, xüsusən müsəlmanların maariflənməsinə laqeyd münasibət göstərildiyini, hüquqlarının məhdudlaşdırıldığını, milli məktəblərin bağlandığını tənqid etmiş və kazarmaya çevrilmiş məscidlərin qaytarılmasını Müsəlman fraksiyası adından tələb etmişdir. Çarizmin köçürmə siyasətinə öz mənfi münasibətini bildirən M.Cəfərov bunun "yerli ünsürü sıxışdırmaq yolu ilə ucqarlarda rus ünsürünü gücləndirmək" məqsədi daşıdığını göstərirdi. Köçürmə nəticəsində ən yaxşı torpaqların yerli əhalidən alınıb gəlmə əhaliyə verilməsini, yerli əhalinin yaşamaq imkanlarının əlindən alınmasını M.Cəfərov "dövlət işi" yox, yerli əhaliyə qarşı yönəldilmiş "dövlət bəlası" hesab edirdi.

M.Cəfərov Sankt-Peterburqda olduğu dövrdə Lənkəran balıqçıları, Şamaxı müəllimləri, müsəlman ruhaniləri ona bir deputat kimi müraciət etmişlər. O, əhalinin irəli sürdüyü məsələləri həll etmək üçün bir sıra dövlət idarələri və nazirliklərlə əlaqə saxlamış, onların həllinə çalışmışdır. Fevral inqilabını (1917) rəğbətlə qarşılayan M.Cəfərov 1917-ci il martın 9-da Müvəqqəti hökumətin göstərişi ilə 4-cü Dövlət Dumasının üzvlərindən yaradılan Xüsusi Zaqafqaziya Komitəsinin tərkibinə daxil idi. Həmin komitədə ona sənaye və ticarət işlərinə rəhbərlik tapşırılmışdı. Bu komitə Müvəqqəti hökumət tərəfindən 1917-ci il martın 6-da bütün xalqa elan olunmuş prinsiplər əsasında Zaqafqaziya diyarında möhkəm qayda yaratmalı və diyarda hakimiyyət orqanını təşkil etməli idi.

M.Cəfərov Fevral inqilabı nəticəsində əldə olunmuş azadlığı müdafiə etmək, qoruyub saxlamaq üçün bütün səyləri birləşdirməyə çağırırdı: "Bu azadlığı əlinizdən verməyin, onu əlinizdə möhkəm saxlayın, iç işləri barədə isə sonra danışarıq". Çarizmin devrilməsi ərəfəsində fəaliyyət göstərmiş 4-cü Duma tribunasından istifadə edən M. Cəfərov öz səsini müxalifətin səsinə qoşaraq, "mərkəzləşdirilmiş bürokratik mexanizmin Rusiyanın özgə xalqlarının milli hisslərini" təhqir etdiyini tam açıqlığı ilə bildirmişdi. M.Cəfərov 1917-ci il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında çıxış etmiş, müsəlmanları birliyə çağırmışdır. Həmin il noyabrın 15-də Tiflisdə yaradılan Zaqafqaziya Komissarlığında M.Cəfərov ticarət və sənaye komissarı vəzifəsini tutmuşdu. M.Cəfərov 1918-ci il fevralın 23-dən Tiflisdə işə başlayan Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü, bu fraksiyanın ümumi rəyasət heyətinin sədr müavini idi.

O, seymin və Müsəlman fraksiyasının iclaslarında dəfələrlə çıxış edərək, Cənubi Qafqaz xalqlarını dostluğa, ədavəti aradan qaldırmağa, əldə edilmiş azadlığı qorumağa çağırmış,Türkiyə dövləti ilə danışıqlara başlamağı və sülh sazişi bağlamağı təklif etmişdir.

1918-ci il maym 27-də Müsəlman fraksiyasının fövqəladə iclasında Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə yaradılan Müvəqqəti Milli Şuranın İcraiyyə Komitəsinin tərkibində M.Cəfərov da seçilmişdir.

M.Cəfərov Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də keçirilən iclasında qəbul etdiyi İstiqlal bəyannaməsini imzalayanlardan biri olmuşdur. Həmin iclasda Fətəli xan Xoyskinin təşkil etdiyi ilk Azərbaycan hökumətinin tərkibində M. Cəfərov ticarət və sənaye naziri vəzifəsini tutmuşdur. Həmin il iyunun 17-də bu hökumət istefa verdikdən sonra M.Cəfərov Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi olmuşdur (1918-ci il iyunun axırlarından 1919-cu il martın ortalarına kimi). O, bu vəzifədə Azərbaycan və Gürcüstan hökumətləri arasında dostluq əlaqələrinin yaradılmasında, keçmiş Zaqafqaziya Demokratik Federativ Respublikasının əmlakının bölüşdürülməsində, Gürcüstan və Dağlılar respublikaları nümayəndələrinin Tiflisdə keçirilmiş konfransında yaxından iştirak etmiş və Azərbaycanla Gürcüstan arasında əlavə müvəqqəti kağız buraxılması haqqında müqaviləni imzalamışdır. 1919-cu il martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü hökumətdə M.Cəfərov xarici işlər naziri vəzifəsini tutmuş, bu vəzifədə 1919-cu il dekabrın 22-nə qədər çalışmışdır. M.Cəfərov bir diplomat kimi Azərbaycan Respublikasının mənafeyini müdafiə etmişdir. Bu, onun imzaladığı Gürcüstan və Azərbaycan respublikaları arasında hərbi-müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilədə, Ermənistan, Gürcüstan və Azərbaycan respublikaları arasında sazişdə, azərbaycanlılara qarşı soyqırımı və ayrı-seçkilik siyasəti əleyhinə Ermənistan xarici işlər nazirliyinə, müsəlman əhalisinin mənafeyinin, əmlakının müdafiə edilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması barədə Böyük Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlıqlarına göndərdiyi notalarda və s. aydın əksini tapmışdır.



M.Cəfərovun sərəncamı ilə Çar Rusiyasının Cənubi Qafqazda siyasətinə dair sənədlər toplusunu hazırlamaq üçün xüsusi komissiya yaradılmışdır (bax, Dokumentı po russkoy politike v Zakavkazye).

1920-ci il fevralın 2-də Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə Azərbaycan Parlamenti sədrinin birinci müavini seçilmiş və Cümhuriyyətin süqutunadək bu vəzifədə çalışmışdır. M. Cəfərov 1920-ci il aprelin 27-də Parlamentin son iclasında gərgin müzakirələrdən sonra hakimiyyətin Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır.

Cümhuriyyətin süqutundan sonra Azərbaycanın pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışmışdır.

# "AZƏRTƏKRARQARAMETAL " ASC-nin 31 dekabr 2017-ci il tarixinə

# BALANS HESABATI

| | | | *Azərbaycan manatı ilə* |
|---|---|---|---|
| | **Qeydlər** | **31.12.2017** | **31.12.2016** |
| **AKTİVLƏR** | | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| Torpaq, tikili və avadanlıq | 8 | 65 907 | 71 138 |
| Uzunmüddətli debitor borcları | 9 | 1 444 693 | 1 444 693 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR:** | | **1 510 600** | **1 515 831** |
| | | | |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | | |
| Ehtiyatlar | 10 | 0 | 0 |
| Qısamüddətli debitor borcları | 11 | 56 198 | 60 577 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 94 | 21 |
| Sair qısamüddətli aktivlər | 13 | 0 | 0 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR:** | | **56 292** | **60 598** |
| **CƏMİ AKTİVLƏR:** | | **1 566 892** | **1 576 429** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 14 | 833 254 | 833 254 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (1 731 937) | (1 713 831) |
| **CƏMİ KAPİTAL:** | | **(898 683)** | **(880 577)** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| Uzunmüddətli kreditor borcları | 15 | 2 440 544 | 2 440 544 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | **2 440 544** | **2 440 544** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| Qısamüddətli kreditor borcları | 16 | 25 031 | 16 462 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR:** | | **25 031** | **16 462** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **2 465 575** | **2 457 006** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **1 566 892** | **1 576 429** |

.

| | **Ödənilmiş nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **Cəmi kapital** |
|---|---|---|---|
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **833 254** | **(1713 831)** | **((880 577)** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 0 | (18 106) | (18 106) |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | |
| **31 dekabr 2017-cı il tarixinə qalıq** | **833 254** | **(1 731 937)** | **(898 683)** |
| 2017-cı il üzrə kapitalda ümumi dəyişikliklər | 0 | (18 106) | (18 106) |

| | **Qeydlər** | **31.12.2017** | **31.12.2016** |
|---|---|---|---|
| Müştərilərdən daxil olan pul vəsaitləri | | 32 724 | 28 556 |
| Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri | | (32 651) | (31 157) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | | **73** | **(2 601)** |
| Ödənilmiş mənfəət vergisi | | 0 | 0 |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **73** | **(26 01)** |
| Əsas vəsaitlərin satışı | | 0 | 0 |
| Əsas vəsaitlərin alışı | | 0 | 0 |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | 0 | 0 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | | 0 | 0 |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin daxilolmaları | | 0 | 0 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | **0** | **0** |
| Borc şəklində alınmış pul vəsaitlərinin daxilolmaları | | 0 | 0 |
| Borc şəklində alınmış pul vəsaitlərinin xaricolmaları | | 0 | 0 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | | **0** | **0** |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | | 0 | 0 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **73** | **(2 601)** |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlində | 12 | 21 | 2 622 |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonunda | 12 | 94 | 21 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin komponentləri** | | | |
| Pul vəsaitləri | | 94 | 21 |
| Bank depozitləri | | 0 | 0 |
| ƏDV depozit hesabı | | 0 | 0 |

| | | | *Azərbaycan manatı ilə* |
|---|---|---|---|
| | **Qeydlər** | **31.12.2017** | **31.12.2016** |
| Əsas əməliyyat gəliri | | 0 | 0 |
| Satışın maya dəyəri | | 0 | 0 |
| **Ümumi mənfəət** | | **0** | **0** |
| Sair əməliyyat gəlirləri | *5* | 22 424 | 24 024 |
| Kommersiya xərcləri | | 0 | 0 |
| İnzibati xərclər | *6* | (25 902) | (25 269) |
| Sair əməliyyat xərcləri | *6* | (14 627) | (14 393) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **(18 105)** | **(15 638)** |
| Maliyyə gəliri | | 0 | 0 |
| Maliyyə xərcləri | *6* | 0 | 0 |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **(18 105)** | **(15 638)** |
| Mənfəət vergisi | 7 | 0 | 0 |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **(18 105)** | **(15 638)** |

MÜSTƏQİL AUDİTORUN HESABATI

Biznes Auc

**"AZƏRTƏKRARQARAMETAL" Açıq Səhmdar Cəmiyyətinin Təsisçilərinə və Rəhbərliyinə:**

*RƏY*

Biz, "Azərtəkrarqarametal"Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə mühasibat uçotunun əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir

*Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəllәsinin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu məcəllənin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

*Əsas audit məsələləri*

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

*Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

*Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Məhərrəm Əliyev
Baş direktor

BİZNES AUDİT

Rəşid Balakişiyev
Auditor

04 aprel 2018-ci il
Bakı, Azərbaycan Respublikası

# Azərbaycanın ən yaxşı startapı seçildi

Qalib 1 milyon ABŞ dolları qazanmaq şansı əldə etdi.

"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı və PAŞA Bankın, Patent və Əmtəə Nişanları Mərkəzinin, İsveçrənin Azərbaycandakı səfirliyinin, eləcə də ADA universitetinin dəstəyi ilə ölkəmizdə 6-cı dəfə təşkil olunan Seedstars World müsabiqəsinin qalibi bəlli olub. İyunun 8-də ADA Universitetində baş tutan final mərhələsində münsiflər heyəti tərəfindən seçilən 10 yerli startap öz layihələrini təqdim edərək, Azərbaycanın ən yaxşı startapı adı uğrunda mübarizə aparıblar. Qaydalara əsasən, müsabiqəyə 2 ildən daha az müddətdə fəaliyyət göstərən, real məhsulu, həmçinin regional və qlobal böyümə potensialı olan startaplar qoşula bilərdilər.

Beləliklə, münsiflərin səs verməsi ilə Elçin Əsgərovun "Onbranch" layihəsi innovativ dayanıqlı həllinə görə Azərbaycanın ən yaxşı startapı adına layiq görülüb. "Tap2Doc" layihəsi ilə Ceyhun Cəfərov 2-ci yerin qalibi, "Owbike" layihəsi ilə isə Həsənağa Azad 3-cü yerin qalibi olublar.

Mükafatın bir hissəsi olaraq, "Onbranch" layihəsi 2019-cu ilin aprelində İsveçrədə keçiriləcək beynəlxalq Seedstars Sammitində iştirak edəcək. Bir həftə davam edəcək təlim proqramı zamanı



startapımızın dünyanın inkişaf etməkdə olan 65-dən çox ölkəsinin qalibləri ilə, həmçinin investor və mentorlarla görüşmək imkanı olacaq. Sammitin son günündə yerli qaliblər 1000 nəfərlik auditoriya qarşısında layihələrini təqdim edəcəklər və 1 milyon ABŞ dolları həcmində investisiya uğrunda yarışacaqlar.

Tədbirin media dəstəyi technote.az portalı və Barama Media tərəfindən təmin edilib. Mi Mobile distributor şirkəti tərəfindən qaliblərə hədiyyələr təqdim olunub.

İnkişaf etməkdə olan və sürətlə böyüyən bazarlara dünya turunu davam etdirən Seedstars World-ün növbəti dayanacağı Qazaxıstanın Astana şəhəridir. Seedstars regional məsələlərin həllini hədəfləyən və onların regional bizneslərinə və inkişafına dəstək vermək məqsədilə qlobal bazar üçün gəlirli və davamlı məhsullar hazırlayan bacarıqlı startaplar axtarışındadır. Seedstars World inkişaf etməkdə olan bazarlarda keçirilən dünyanın ən böyük startap yarışmasıdır.

Tədbirin keçirilməsində Seedstars-ın məqsədi inkişaf edən ölkələrdə mövcud olan, xüsusilə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun həllər istiqamətində fəaliyyət göstərən sahibkarları üzə çıxarmaqdır.

Məlumat üçün bildirək ki, informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri - startapları dəstəkləyərək, onların müstəqil şirkət kimi inkişaf etməsinə kömək edən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi İsveçrənin "Seedstars" şirkəti ilə yaxından tərəfdaşlıq edir və "Seedstars Baku" müsabiqəsinin yerli təşkilatçısıdır.




# "AtaHolding"-in gənc mütəxəssisi "İlin Peşəkar Gənci" müsabiqəsinin qalibi olub

2018-ci il iyunun 8-də Azərbaycan Respublikası ticarət, ictimai iaşə, kooperasiya sağlamlıq ocaqları, turizm, idman, otelçilik, balıqçılıq və digər xidmət sahələri işçiləri Həmkarlar İttifaqları Federasiyası (Xidmət-İş) 2017-ci ildə sahə üzrə əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclər arasında keçirdiyi "İlin Peşəkar Gənci" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirib.

Tədbirdə "AtaHolding" MMC-nin Mühasibatlıq şöbəsinin rəisi, holdinqdə HİK-in sədri Gülnar Əliyeva "İlin Peşəkar Gənci" müsabiqəsinin qalibi elan olunub.




Diplom Xidmət-İş Həmkarlar İttifaqı Federasiyasının sədri İlyas Əliyev tərəfindən Gülnar Əliyevaya təqdim olunub.

"AtaHolding" MMC-də HİK-in sədri Gülnar Əliyeva bildirib ki, "AtaHolding" 29 dekabr 2007-ci il tarixindən AHİK-in üzvüdür. "AtaHolding" 2015-ci ildə də holdinqin kollektivinə Sağlam və Təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi devizi ilə keçirilən respublika müsabiqəsinin ən yaxşı nəticələrinə görə diplomla təltif olunmuşdur.

Tədbirdə "AtaHolding" və "Excelsior Hotel Baku" otelinin əməkdaşları iştirak ediblər.

# AtaBank BMX veloidmanı üzrə dünya çempionatında qonaqlara xidmət göstərdi

5-9 iyun tarixləri arasında Bakıda Şıxov veloparkında keçirilən BMX velosiped idman növü üzrə dünya çempionatında "AtaBank" ASC AtaMatik səyyar bankomatı ilə iştirakçılara, azarkeş və qonaqlara müxtəlif növ bank xidməti göstərib. 5 gün müddətində davam edən çempionatda AtaMatik səyyar bankomatı vasitəsilə hər kəs nağd pul çıxara, habelə nağdsız ödənişlər və əməliyyatlar apara bilib.

"AtaBank" ASC-nin İdarə Heyəti Sədrinin birinci müavini Etibar Babaşlının sözlərinə görə, AtaBank hər zaman ölkəmizdə idmanın və turizmin inkişafı məqsədi ilə keçirilən yarışlarda Azərbaycan vətəndaşları ilə yanaşı, həm də xarici qonaqlara innovativ bank xidmətlərindən istifadə etmək imkanı yaradır. Qonaqlar banka gəlmədən yarışın keçirildiyi məkanda AtaMatik səyyar bankomatından istifadə edərək bir sıra bank əməliyyatlarını həyata keçirə bilərlər.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.



# Bakcell Böyük Britaniya səfirliyinin təşkil etdiyi tədbirlərə dəstək göstərdi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi olan Bakcell şirkəti Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin ənənəvi olaraq hər il keçirdiyi iki böyük tədbirə dəstək göstərdi.

Belə ki, Böyük Britaniyanın Azərbaycandakı səfirliyi ilə uzunmüddətli əməkdaşlığı çərçivəsində Bakcell şirkəti "Xəzər Neft və Qaz" sərgi və konfransının 25-ci ildönümü münasibətilə Böyük Britaniya Səfirliyi və ABŞ Səfirliyinin birgə təşkil etdiyi təntənəli qəbul mərasiminin sponsorlarından biri olub.

İyun ayının 7-də isə şirkət Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin doğum günü münasibətilə təşkil edilmiş təntənəli qəbulun keçirilməsinə dəstək göstərib. Ziyafətdə Azərbaycanın və Böyük Britaniyanın dövlət məmurları, yerli və beynəlxalq şirkət və təşkilatların



nümayəndələri iştirak edib.

Qeyd edək ki, Bakcell şirkəti uzun illərdir ki Böyük Britaniyanın Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq edir və bu əməkdaşlıq sayəsində səfirliyin təşkil etdiyi bir sıra tədbirlərə sponsorluq etməklə yanaşı, "BritishCouncil" ilə birgə müxtəlif Korporativ Sosial Məsuliyyət layihələrini uğurla həyata keçirib. Artıq 20 ildən çoxdur ki Azərbaycanda fəaliyyət göstərən Bakcell şirkəti hazırda müxtəlif sahələri təmsil edən 1800-dən artıq korporativ müştəriyə xidmət edir. Bakcell neft sənayesi daxil olmaqla ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən neft-qaz şirkətlərini ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir.




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadəyə və Mübariz Əhmədzadəyə bacıları

**ƏLİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«İqtisadiyyat» qəzeti və Azərbaycan İqtisadçılar İttifaqının kollektivi əməkdaşımız Vaqif Musayevə anası

**GÖZƏL XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500